www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 yanvar 2016-cı il Bazar ertəsi № 12 (6333) Qiyməti 60 qəpik

**Xəbər**

## Şənlikdən qayıdan ailə avtoqəzaya düşdü: 1 ölü, 4 yaralı...

yazısı səh.14-də

**Gündəm**

### İranın Qərblə böyük barışı - dünya yeni sabaha oyanır



Tehran üzərindən sanksiyalar rəsmən götürüldü; neft daha sürətlə ucuzlaşa bilər; sanksiyaların ləğvinin Azərbaycana iki təsiri - biri yaxşı, biri pis...

yazısı səh.9-da

### İcra hakimiyyətlərinin ləğvi tələbləri artır

yazısı səh.3-də

### Parlamentin növbədənkənar iclasının gərgin keçəcəyi gözlənilir

yazısı səh.6-da

### Eldar Sabiroğlunun həbs edilən oğlu siyasi məhbus sayılacaqmı? - Fikirlər haçalanır

yazısı səh.5-də

### Türkiyə XİN başçısından önəmli Qarabağ açıqlaması

yazısı səh.11-də

### Kamandar Eyvazlı Zəlimxan Yaqubun müdafiəsinə qalxdı: "Əgər kişiliyin çatırdısa..."

yazısı səh.10-da

### Kredit borcuna görə intihar etməyin: ailənizdən alacaqlar!..

yazısı səh.13-də

### Valyutadəyişmə məntəqələrinin ləğvi "qara bazar"ı gücləndirib

yazısı səh.4-də

### Əməkdaşımız Bakı bomjlarının səfil həyatından yazır

yazısı səh.12-də

### Rusiyalı politoloqdan bəd proqnoz: "2016-cı il Qarabağa sülh gətirməyəcək..."

yazısı səh.11-də

### "Nikoylbank" iş adamlarını çıxılmaz duruma salıb

yazısı səh.3-də

## Təcridxanadakı intiharla bağlı sensasion iddia

# MTN POLKOVNİKİNİN MÜƏMMALI ÖLÜMÜNÜN ŞOK SİRRİ- "DANIŞACAM..."

İlqar Əliyev konkret ünvanları kompromatlarla hədəfə alıbmış; Bakı Apelyasiya Məhkəməsində o, susmayacağını açıq şəkildə ortaya qoyub və...




yazısı səh.5-də

## Ermənistanda Türkiyə xofu güclənir - düşmənin qəfil təlaşlanmasının pərdəarxası

İşğalçı ölkə həm Kremlin himayəsini itirməkdən qorxur, həm də ayaq altda qalmaqdan; sərhədin bu tayında Rusiya, o tayında isə Türkiyənin hərbi təlimlərə başlaması mənfur qonşumuzun yuxusunu qaçırıb; təcavüzkar "iki od" arasında...

yazısı səh.8-də



### Pənah Hüseyn Qüdrət Həsənquliyevə cavab verdi: "Nədən xoflanıb?"

yazısı səh.7-də



### Soğan satanlardan Aqil Abbasa acı sözlər

yazısı səh.4-də



*Aydın Mirzəzadə:*

### "Müxalifətin bəzi təklifləri qəbul oluna bilər..."

yazısı səh.6-da



# İlham Əliyev Davosa gedir

**Azərbaycan prezidenti İlham Əliyev gələn həftənin əvvəlində İsveçrənin Davos şəhərində işə başlayacaq Dünya İqtisadi Forumunda iştirak edəcək. Virtualaz.org xəbər verir ki, bu haqda Türkiyənin "Habertürk" qəzeti yazıb.**

Davos forumu bu dəfə "Dördüncü sənaye inqilabı" devizi altında keçiriləcək. Forumda dünyanın 100-dən artıq ölkəsindən 2500-ə yaxın qonaq, o cümlədən prezidentlər, baş nazirlər, iri korporasiyaların rəhbərləri iştirak edəcəklər.

Forumda Azərbaycan prezidenti ilə yanaşı ABŞ vitse-prezidenti Cozef Baydenin, dövlət katibi Con Kerrinin, Böyük Britaniyanın baş naziri Devid Kemeronun, Kanada baş naziri Jastin Trudeaunun, İran xarici işlər naziri Cavad Zərifin, Yunanıstan baş naziri Aleksis Tsiprasın və digər dövlət rəsmilərinin də iştirakı təsdiqlənib. Habelə Türkiyənin baş naziri Əhməd Davudoğlu Londona bu gün başlayan səfərini başa vurandan sonra Davos forumuna qatılacaq.

Azərbaycan prezidentinin indiki situasiyada Davos forumunda iştirakı xüsusi önəm daşıyır. Belə ki, bu forum Azərbaycana xarici investisiyaların cəlb edilməsinə yönəlmiş danışıqlar üçün mühüm fürsətdir. Manatın devalvasiyası və neftin ucuzlaşdığı bir vaxtda Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaları cəlb etməsi indi daha vacib məsələ kimi gündəmdə dayanır.



# Azay Quliyev bu gün seçiciləri ilə görüşəcək

**18 yanvar saat 15:00-da Milli Məclisə 8 saylı birinci Binəqədi seçki dairəsindən seçilən deputat Azay Quliyevin seçiciləri ilə növbəti görüşü keçiriləcək. Bu barədə millət vəkilinin köməkçisi Xəlil İsmayılov məlumat verib. O bildirib ki, arzu edənlər görüşdə iştirak edə bilərlər.**

Görüş Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti, Heydər Əliyev adına istirahət parkının yanında yerləşən Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının inzibati binasında keçiriləcək.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.50 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Mağazaların icarə haqları endirildi: aksiya olmayacaq

**Yanvarın 11-də "28 May" metrostansiyasının yeraltı keçidlərində ticarətlə məşğul olan 50 nəfərə yaxın sahibkar icarə haqlarının yüksək olması ilə bağlı etiraz etmişdilər. Satıcılar alıcılığın zəif olması ilə əlaqədar gəlirlərinin azalmasını nəzərə alaraq, icarə haqlarının endirilməsini tələb etmişdilər. Əks halda toplaşaraq, etiraz aksiyası keçirəcəklərini bildirmişdilər.**




Mağazalara rəhbərlik edən şəxslər isə satıcıları qəbul edərək, məsələyə baxılacağını bildirmişdilər.

Dünən satıcılar musavat.com-un əməkdaşına icarə haqqlarının endirilməsi barədə məlumat veriblər. Adının çəkilməsini istəməyən satıcı mağazalarda icarə haqlarının endirilməsinə başlanıldığını bildirib: "Bir neçə gündür ki, icarə haqlarında güzəştlər olunur. Əksər mağazalarda icarə haqları endirilib. Aylıq icarə haqları 2500-5000 manata olan mağazalarda 1000-2000 manata qədər endirimlər ediblər. Məlumata görə, endirimlər hissə-hissə aparılır. İnanırıq ki, güzəştlər bütün mağazalara şamil olunacaq və əvvəlki kimi işimizi davam etdirə biləcəyik".

❑ **MƏĞRUR**



# Qubanın istirahət mərkəzindəki qətlin üstü açıldı

**Qubanın istirahət mərkəzindəki qətlin üstü açılıb.Bu barədə Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin mətbuat xidmətləri məlumat yayıb. Məlumatda qeyd olunur ki, yanvarın 15-də Quba rayonunda fəaliyyət göstərən istirahət mərkəzlərindən birində üzərində xəsarətlər olan 35-40 yaşlarında naməlum qadın meyitinin aşkarlanması faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə cinayət işi başlanıb, dərhal hadisə yerinə baxış keçirilməklə müvafiq ekspertizalar təyin edilib.**

Polis və prokurorluq orqanları tərəfindən həyata keçirilən təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində meyiti tapılan şəxsin Bakı şəhər sakini, 1978-ci il təvəllüdlü Könül Zalova olması müəyyən edilib.

**Cinayətin Bakı şəhər sakini, 1982-ci il təvəllüdlü Elməddin Əhmədov tərəfindən törədilməsində kifayət qədər əsaslar olduğundan o, şübhəli şəxs qismində tutularaq istintaqa təhvil verilib. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

# Kamal Kılıçdaroğlu yenidən CHP sədri seçildi



**Türkiyənin ana müxalifət partiyası Cümhuriyyət Xalq Partiyasının növbəti qurultayı keçirilib. Partiyanın sayca 35-ci qurultayı 2015-ci il ərzində iki dəfə - 7 iyun və 1 noyabrda - keçirilən parlament seçkilərindən sonra yaranmış situasiyada etimad səsverməsi hesab olunurdu. Çünki parlament seçkilərindən sonra müxalifət partiyalarında, xüsusən də CHP, MHP və HDP-də rəhbərliyə etimad məsələsi gündəmə gəlmişdi.**

Hər 3 partiyadakı daxili müxalifət rəhbərliyin yenilənməsi və bunun üçün qurultayların keçirilməsini təklif edirdi. Yanvarın 16-da keçirilən CHP-nin növbəti qurultayı bu mənada həm də hazırkı rəhbərliyə etimad səsverməsi hesab olunurdu. Qurultayın birinci günü isə əsas çıxışlar dinlənilib və sədr seçkiləri keçirilib.

CHP-nin 35-ci qurultayında 1238 qurultay nümayəndəsi iştirak edib. Partiya sədrliyinə namizəd olmaq üçün nizamnaməyə əsasən qurultay iştirakçılarının 10 faizi, yəni 128 nəfərin imzası gərəkli olub. Bu üzdən partiya sədrliyinə iddialı Mustafa Balbay namizədlik üçün iddiasını ortaya qoysa da, yalnız 92 imza toplaya bilib. Bununla da seçkidə partiya sədrliyinə yeganə namizəd sədr Kamal Kılıçdaroğlu olub. Qurultayda keçirilən səsvermə nəticəsində Kamal Kılıçdaroğlu qurultay iştirakçılarının 990 nəfərinin səsini alaraq yenidən CHP-nin sədri seçilib.

Qurultayda gözlənildiyi kimi hökuməti sərt şəkildə tənqid edən K.Kılıçdaroğlu hazırkı hakimiyyətin terror problemi, kürd məsələsi ilə bağlı siyasətinin iflasa uğradığını bildirib. CHP sədrinin AKP və prezident Rəcəb Tayyib Ərdoğan barədə kəskin fikirlər səsləndirməsi qurultayda iştirak edən AKP nümayəndə heyətinin etirazına və zalı tərk etməsinə səbəb olub.

Kamal Kılıçdaroğlunun yenidən partiya sədrliyi postunu əlində saxlaması bir sıra amillərlə izah olunur. Məsələ burasındadır ki, Türkiyədə son illərdə dindar sağ mərkəzçi düşüncə sürətlə böyüyür. AKP-nin 13 illik iqtidarı dönəmində bu artım xüsusilə böyüyüb. Sürətlə dindarlaşan və sağ ideyaların dərinləşdiyi Türkiyədə mərkəz solçu partiyaların maksimum 30 faiz səsinin olduğu düşünülür. Bu kontekstdən baxdıqda hətta son seçkilərdə belə digər partiyaların AKP qarşısında səs itkisinə baxmayaraq, mandat sayını qoruyub saxlayan, hətta cüzi də olsa (2 mandat) artıra bilən CHP-nin daha artığını əldə etməsi indiki situasiyada mümkünsüz görünür. Bunu CHP-də də görürlər və bu anlamda partiyanın yeni sədrə ehtiyac duymadığı anlaşılandır.

**Görünən odur ki, hələlik Türkiyədə sağ mühafizəkar siyasi düşüncə daha çox dəstək qazanır. Solun isə nail olacağı ən yüksək nəticəni K.Kılıçdaroğlu göstərə bilir. İndiki situasiyada daha artığını əldə etmək mümkün deyil.**

❑ **KƏNAN, Ankara**



# Ərəb şeyxlərinin Azərbaycana növbəti ov səfəri

**Bu dəfə Əbu-Dabi şeyxləri Azərbaycana ova gəliblər. BAKU WS-in məlumatına görə, zəngin ərəb şeyxləri Bakıya gələndən paytaxtımızın ən məşhur və eləcə də bahalı otellərindən birində məskunlaşıblar. Təxminən 12-13 şeyx daha sonra ov üçün İmişli rayonuna yollanıb.**

Bakıda bahalı maşınlar icarəyə götürən ərəblər VİP turizm xidmətlərindən yararlanıblar. Ərəblər özləri ilə şəxsi aşpazlarını, mühasiblərini və hətta sürücülərini də gətiriblər. 4 gün İmişlidə ov edən şeyxlər bu müddət ərzində kabab keyfi də ediblər.

Qeyd edək ki, Əbu-Dabi neft gəlirləri sayəsində müasir bir şəhər halına gəlib. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) tərkibinə daxil olan yeddi əmirlikdən biridir. Əbu-Dabi dünyadakı neft ehtiyatları baxımından ən şanslı ölkələr arasındadır.

Əbu-Dabi bir ada olmasına baxmayaraq, bu əmirliyi quruya 3 böyük körpü bağlayır. Digər körfəz ölkələrində olduğu kimi, burada da çöl iqlimi hakimdir.

# Qadının sürdüyü "Jeep" aşdı: ölən və yaralananlar var

**Ötən gecə Bakı-Quba yolunda ağır avtomobil qəzası baş verib. Lent.az-ın məlumatına görə, magistralın 42-ci kilometrliyində qadın sürücünün idarə etdiyi "KİA Sorento" markalı cip yoldan çıxaraq aşıb. Nəticədə avtomobildə olan sərnişinlərdən 64 yaşlı qadın vəfat edib. 23 və 42 yaşlı iki qadın isə müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsində cinayət işi açılıb, araşdırma aparılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**Cəbrayılın icra başçısı Mahmud Quliyevin vətəndaşı təhqir etdiyi iddia olunan, günlərdir mətbuatı zəbt edən məlum videosunun üzə çıxmasından sonra yerli "padşahlar"ın qanunsuzluqları məsələsi yenidən gündəmə gəlib. Rayon rəhbərlərinin özbaşınalıqları getdikcə artmaqdadır.**

# İcra hakimiyyətlərinin ləğvi tələbləri artır...

Hər icra başçısı rəhbəri olduğu ərazidə özünü fövqəltəbii qüvvə sayır. Onların yarıtmaz fəaliyyəti məhz vətəndaşları tez-tez dövlətlə üz-üzə qoyur. Bu cür hadisələrin indiyə qədər dəfələrlə şahidi olmuşuq. İsmayıllı və Quba hadisələrini misal çəkə bilərik. İcra başçılarının qanunsuzluqları son illərə təsadüf etmir. Müstəqillik illərində daim bu məsələ aktual olub. Təkcə 13 il öncə Şəmkirdə icra başçısı Aslan Aslanovun törətdiyi əməllər, oğlunun məlum hadisə ilə bağlı öldürülməsi və buna görə Aslanovun iki nəsli məhv etdirməsi, bu tipli şəxslərin rəhbərləri olduqları bəzi rayonların orta feodalizm dövrünə getdiyini göstərir.

Bu qədər qanunsuzluqlarla məşğul olan, başçıları xalqa həqarətlə baxan qurumların mövcudluğu nəyə gərəkdir? Son vaxtlar bu məsələ dövlət strukturlarında zəruri ixtisarlarla bağlı da gündəmə gəlib. Bəs bu qurumlar ləğv edisə, idarəetmədə nələr dəyişər?

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** bildirdi ki, Bakı meri Hacıbala Abutalıbov başda olmaqla, bu qurumlar tamamilə ləğv edilməlidir: "Bunlarla yazışmalarım gedir. Məktublar yazmışam, onları məhkəməyə verəcəm. Hətta Ombudsman Elmira Süleymanova belə kömək edə bilmir. Bu qurumlar yeyinti etməkdən başqa heç bir iş görmürlər. Bununla bağlı yazı da yazmışam. Prezident səviyyəsində müraciət etmişəm. Onların heç bir faydası yoxdur. Rayonların mövcud vəziyyətinə baxın. Hər şey batır. Nə qədər pullar təmir adı ilə yeyilib.



**Mehman Əliyev:** "Hacıbala Abutalıbov başda olmaqla..."



**Müzəffər Baxış:** "Çəkinmədən idarəetməni bələdiyyələrə vermək lazımdır"

Onlar nəyə lazımdır? Normal ölkələrdə yerli idarəetmə orqanları olmalıdır. Onları xalq seçir, onlar da xalq qarşısında məsuliyyət daşıyırlar. Azərbaycan hakimiyyəti 2000-ci ildə Avropa Şurasına üzv qəbul edilləndə öhdəliklər götürüb. Bələdiyyələr icra hakimiyyətlərinin nəzarətinə keçib. Halbuki, xalqın tabeçiliyində olmalıdır. Çünki onları xalq seçir, icra başçıları yox. Özü də başqa rayondan olan digər rayona icra başçısı təyin edirlər. Bu nə deməkdir? Yerli şəxs olmalıdır ki, öz doğma torpağı üçün işlər görsün. O zaman öz tanışları, yerliləri qarşısında məsuliyyət daşıyacaq. Bütün dünyada bu belədir. Ona görə də, Avropa günü-gündən çiçəklənir. Çox gecikmişik, təcili dəyişikliklərə getməliyik. Hakimiyyətin özü də bu qanunsuzluqların iştirakçısıdır. Mənimsənilən pullar yuxarılara da çatır. Bu hallara son qoymaq lazımdır. İqtisadi böhranın başvermə səbəblərindən biri də, məhz qeyd etdiyim amillərdir".

**Hüquqşünas Müzəffər Baxış** da icra hakimiyyətlərini əhəmiyyətsiz qurum adlandırdı: "1995-ci il 12 noyabrda qəbul edilmiş konstitusiyamız çox qüsurludur. Burada bir-birini təkzib edən müddəalar var idi. 142-ci maddədə göstərilir ki, yerlərdə özünü idarəetməni bələdiyyələr həyata keçirir. 124-cü maddədə isə göstərilir ki, yerlərdə icranı icra hakimiyyətləri həyata keçirir. Dünyada yerlərdə idarəetmə yerli idarəetmə orqanları tərəfindən həyata keçirilir. Bu idarəetmə həm ucuz başa gəlir, həm də səmərəlidir. Amma Azərbaycan Rusiyanın təcrübəsindən bəhrələnir. Bələdiyyələr ölkəmizdə formal bir quruma çevrilib. Yaxınlarda YAP-ın bir üzvü də etiraf etmişdi ki, yerlərdə icra başçıları bələdiyyələrin səlahiyyətlərini oğurlamaqla məşğuldurlar. İcra hakimiyyətlərinin heç bir effekti yoxdur".

**Hüquqşünas icra başçılarının aldıqları maaşlara da toxundu:** "Masallı Rayon İcra Hakimiyyətində 35-40 vəzifə var. Başa düşə bilmirəm ki, bu qədər şəxs nə ilə məşğuldur? Onlar yalnız seçkilər vaxtı yuxarıdan gələn tapşırıqları icra edirlər. Özü də böyük əməkhaqqı alırlar. Məsələn, Masallının icra başçısının əməkhaqqı 1500 manatdır. Hansı icra başçısı bu qədər məbləğlik iş görür? Buna görə də, tezliklə bütün icra hakimiyyətlərini ləğv etmək lazımdır. Çəkinmədən idarəetməni bələdiyyələrə vermək lazımdır. Dövlət büdcəmiz o zaman icra hakimiyyətlərinə ayrılan vəsaitlərdən də azad olar, iqtisadiyyatımız inkişaf edər. Sizi əmin edirəm ki, icra başçıları heç bir funksiya həyata keçirmirlər. Yollara ayrılmış müəyyən məbləği başçıya çatmalıdır, yol isə keyfiyyətsiz olmalıdır. Bunların gördükləri iş budur. Masallıda beş il öncə çəkilən yol indi dağılır. Çünki icra başçısı vəsaitin müəyyən hissəsini mənimsəyib. Bu kimi hallar bütün rayonlarda olur. İcra başçılarının hər kənd üzrə nümayəndələri var. Bunların funksiyası nədir? Yalnız ailə tərkibi haqqında arayış vermək. Buna görə belə vəzifələri saxlamağa nə ehtiyac var?"

❑ **Cavanşir ABBASLI**

# Mahmudov getdi, davamçıları qaldı?

## Aslan İsmayılov: "Baş verənlər keçmiş MTN rəhbərliyinin hələ də güc sahibi olduğunu söyləməyə əsas verir"

**Bulvar İdarəsinə birləşdirilən Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi Rəşad Məmmədovun əleyhinə daha bir şəxsin ifadə verməsi haqda xəbər vermidik. Bu günlərdə məlum olub ki, Məmməd adlı usta istintaqa ərizə verərək Rəşad Məmmədovun ona gördüyü işə görə 2 min manat borcu olduğunu bildirib.**



Aslan İsmayılov

Vaxtilə Eldar Mahmudovun villalarından birində çalışmış bu şəxsin ərizəsinin araşdırılıb-araşdırılmaması haqda məlumat yoxdur. Ustanın istintaqa ərizə ilə müraciət etməsi iş üzrə digər ərizəçi Zabil Salmanovun ərizəsini geri götürməsi haqda məlumatların dövriyyəyə daxil olmasından sonraya təsadüf etməsi suallar doğurub, maraqlı versiyalar üçün əsasa çevrilib.

Belə məlumatlar yayılıb ki, Eldar Mahmudov vəzifədən uzaqlaşdırılsa da, onun rəhbərlik etdiyi qurum ləğv edilsə də, onun özü ev dustaqlığında olsa da, ətrafının hələ də adamlara təsir etmək, yönləndirmək imkanları tükənməyib. Məmməd adlı ustanın Zabil Salmanovun ərizəsini geri götürəndən sonra ortaya çıxması təsadüfdürmü? R.Məmmədovun evində illər əvvəl çalışmış ustanın indi "pulumu verin" iddiası ilə ortaya çıxması qəribə deyil?

Bu suallara ustanın müraciət etdiyi orqanın müstəntiqləri cavab versə, daha yaxşı olar. Bəs Z.Salmanovun ərizəsi necə oldu? O, ərizəsini geri götürə bildimi?

**Zabil Salmanovun nümayəndəsi, tanınmış hüquqşünas Aslan İsmayılov** "Yeni Müsavat"a bildirib ki, Zabil Salmanov hədə-qorxulara məruz qalaraq həmin ərizəni yazdığını, E.Mahmudov işdən çıxarılandan dərhal sonra ona zorla yazdırılan ərizədən imtina etməsi haqda yeni ərizə ilə hüquq mühafizə orqanlarının rəhbərlərinə müraciət edib: "Zabil Salmanovu MTN-ə çağırıb, hədə-qorxu gələrək, mənim də adımı hallandırmaqla borca salıb 500 min manata yaxın pulunu alıblar. Rəşad Məmmədov həbs olunandan sonra isə onu yenidən MTN-ə çağırıblar. Bu dəfə ona bildiriblər ki, Rəşad Məmmədovun əleyhinə ifadə verməlidir. Zabil Salmanov bu şəxsi tanımadığından ifadə verməkdən imtina edib. Səhərisi gün Zabil Salmanovu yenidən zorla apararaq MTN rəhbərliyi bütün təzyiq imkanlarından istifadə edib məcburi şəkildə Rəşad Məmmədovun əleyhinə ifadə alıblar. "MTN işi" başlayandan sonra isə Zabil Salmanov dərhal Baş Prokurorluğa müraciət edərək baş verənləri olduğu bu qurumun rəhbərliyinin diqqətinə çatdırıb və elə orada da birinci dəfə bilib ki, 4 uşaq atası olan Rəşad Məmmədov ancaq ondan zor gücünə alınmış ifadəyə görə ayrılar ki, həbsdədir. Elə həmin günlər əlavə olaraq MTN yeni rəhbərliyinə də bu qanunsuzluq barədə müraciət etdi. Artıq üstündən aylar keçsə də, ancaq nə bir qanunsuz ifadə əsasında həbsdə olan Rəşad Məmmədov azad olunmayıb, nə də Zabil Salmanovdan zor gücünə alınmış 500 min manata yaxın pul qaytarılıb. Əksinə, son günlər baş verənlər MTN-nin keçmiş rəhbərliyinin hələ də güc sahibi olduğunu deməyə əsas verir. Belə ki, son günlər Zabil Salmanovdan Respublika Prokurorluğuna verdiyi şikayət ərizəsindən imtina etməyi və MTN-də zorla Rəşad Məmmədovun əleyhinə alınmış ifadəni təsdiq etməyi tələb edirlər. Özü də bunu baş prokurorun adından edirlər. Əminəm ki, bu yazını oxuyan respublika prokurorluğunun rəhbərliyi müvafiq tədbir görəcək, adlarından istifadə edənləri cəzalandıracaq".

**A.İsmayılov bildirdi ki, Z.Salmanovun imtina ərizəsinə baxılmayacağı təqdirdə baş verənlərlə bağlı prezidentə müraciət edəcəklər.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Nikoylbank" iş adamlarını çıxılmaz duruma salıb

## Bankdan müştərilərə: "Bizdə "oqnotuşitel" var, özünü yandır, biz söndürərik"

**Devalvasiya dalğaları bir-birini əvəzlədikcə ölkənin bank sistemi iş adamlarını və sadə vətəndaşları tapdamağa, əzməyə daha da iştahlanır. İllərlə bankların müştərisi olmuş, bank sahiblərini var-dövlətlərini artırmış sahibkarlara azacıq belə güzəşt etmək istəmirlər. Bir tərəfdən bank faizlərini yerində saxlayır, digər tərəfdən sahibkarlardan ağla gəlməyən məsrəfləri qarşılamağı tələb edirlər.**




Xırda biznesə məşğul olan Elşad İsayev, Şakir Əliyev, Leyla Hüseynova və Əlihüseyn Cəbrayılov "Nikoylbank"ın Xətai filialında baş verən möhtəkirlikdən şikayətçidirlər. Onların sözlərinə görə, ötən ilin sentyabrında banka qızıl girov qoyaraq kredit götürüblər. Kreditləri vaxtında ödəyiblər.

**Elşad İsayev deyir ki, hər biri bankdan ayrı-ayrılıqda 9 min 800 dollar pul alıblar:** "Pulu bizə lombard biznesinə görə vermişdilər. Banka qoyduğumuz qızıllar qohum-tanışlarımızdan yığılmış qızıllar idi. Belə razılıq vardı ki, pulu ödədikcə qızılları bizə qaytaracaqlar, biz də qızılları sahiblərinə qaytaracağıq. Devalvasiyaya qədər bank faizlərini ödəyirdik. Devalvasiyadan sonra da ödəməkdə davam etdik. Bizə pulu dollar 1 manat 5 qəpik olanda veriblər. İndi isə 1 dollar 1 manat 60 qəpikdir. Və biz pulu banka kursa görə ödəməkdə davam edirik. Amma bizdən hər dəfə pul ödəyib qızıl çıxaranda əlavə 25 dollar pul tələb edirlər. Bu möhtəkirlik, bizə qarşı edilən böyük qanunsuzluqdur".

**E.İsayev deyir ki, bank onlara pulu 27.5 illik faizlə verib**: "Amma faktiki olaraq hər dəfə əlavə 25 dollar almaqla faiz dərəcəsini qaldırır. Biz həmin pulu götürəndə banka dedik ki, məqsədimiz əhaliyə manatla verməkdir. Özləri də razılaşdılar. İndi isə bizə qarşı möhtəkirlik edirlər. Bizi əhali ilə üz-üzə qoyurlar. Bu bankçılıq deyil, adı nədirsə başqadır. Bankın rəhbərliyi bilməlidir ki, bizim vəziyyətimiz çox pisdir. Çünki bu şərtlərlə bankın pulunu ödəmək mümkün deyil".

**E.İsayev deyir ki, bizneslərində digər şərikləri Qurban Mahmudov "Rabitəbank"da eyni qayda ilə üzləşib:** "Rabitəbank"ın Müşahidə Şurasının sədri Zakir Nuriyev Azərbaycan Banklar Assosiasiyasının sədridir. Amma onun rəhbərlik etdiyi bankın Səbayel filialında müştərilərə qarşı möhtəkirlik edirlər. Əvvəllər belə hallar yox idi. Sanki devalvasiya bunlara camaatın başına oyun açmaq üçün şərait yaradıb. Hər dəfə faizlərini ödəyib qızılı götürəndə bizdən 25 dollar əlavə pul alırlar. Biz də camaata pulu dollarla vermək məcburiyyətindəyik. Bunlar bizi əhali ilə üz-üzə qoyur. 100 dollarlıq malın üstündə bizdən faizlərindən başqa 25 dollar alırlar. Bu pul şəxsi ciblərə gedir. Möhtəkirlik edirlər. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi hara baxır?"

**E.İsayev deyir ki, banklar onları intihara sürükləyir:** "Deyirik ki, bizdən hər dəfə 25 dollar alırsıza, deməli bizə pulu 27 faizlə deyil 127 faizlə vermisiz. Hesablayın baxın. Açıq-aşkar deyir ki, get nə istəyirsən elə. "Nikoyl bank"da bizi özünü yandırdı, nə oldu? Bizə göstərdiyi yol budur. Ardınca da deyir ki, bizdə "oqnotuşitel" var, özünü yandır, biz söndürərik".

❑ **E.HÜSEYNOV**

P.S *Hər iki bankın mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016




# Valyutadəyişmə məntəqələrinin ləğvi "qara bazar"ı gücləndirib

## Ekspert: "Bank sisteminə inam tam itə bilər..."

**Valyutadəyişmə məntəqələrinin lisenziyaları ləğv olunmasının dolların məzənnəsinə təsir edib-etməyəcəyi müzakirə edilir. Əksər ekspertlər bildirirlər ki, əslində Mərkəzi Bankın dollar satmamasının səbəbi dolların məzənnəsinin artmasının qarşısını almaq deyil, qurum əhalini aldadır.**

Belə ki, yanvarın 13-dən yalyutadəyişmə məntəqələrinin lisenziyaları ləğv edilsə də, dolların bahalaşmasının qarşısını almaq mümkün olmayıb. Ekspertlər bildirirlər ki, lisenziyaların ləğvi problemi həll etməyəcək.

**Ekspert Əkrəm Həsənov** musavat.com-a bildirib ki, valyutadəyişmə məntəqələrinin ləğv edilməsi əsasən narahatlığı və bahalaşmanı aradan qaldırmayacaq: "Əksinə, artıracaq. Rəsmi valyuta alma mexanizmləri olmayanda, qara bazar güclənəcək, amma o da baha olacaq. Buna görə də ümumən dollar az alınacaq və Mərkəzi Bankın ehtiyatları nisbətən az sürətlə azalacaq. Zatən Mərkəzi Bankın istəyi də budur. Amma bunun müqabilində ölkə iqtisadiyyatı daha da geriləyə və bank sisteminə inam tam itə bilər".

**Ekspert Fikrət Yusifov** isə qeyd edib ki, o, bir neçə dəfə valyutadəyişmə məntəqələrinin ləğvini gündəmə gətirib: "Biz də məhz neçə gündür ki, bunun vacib olduğunu əlaqədar qurumların diqqətinə çatdırmağa çalışırdıq. Hesab edirik ki, bu qərar "qara bazar"a vurulan ilk və ciddi zərbədir".

**Qeyd edək ki, bir neçə gündür ölkədə dollar ajiotajı güclənib. Əkrəm Həsənovun sözlərinə görə, dollar əslində bahadır və Mərkəzi Bank bunu elan etməkdən qorxur:** "Əgər rəsmi rəqəmlərə inansaq, Mərkəzi Bankın hazırda 6 milyard valyuta ehtiyacı var. Belə çıxır ki, onda Mərkəzi Bank valyuta ehtiyatlarını itirməmək üçün banklara sadəcə, dollar satmır. Banklar da sata bilmir, çünki dolları yoxdur. Amma bu, eyni zamanda o deməkdir ki, dolların Mərkəzi Bank tərəfindən elan olunan rəsmi məzənnəsi əslində reallığa cavab vermir. Manatın faktiki devalvasiya göstəricisi çoxdur. Amma Mərkəzi Bank bunu etiraf etmək istəmir. Çünki o, doğrudan da dollar satmağa başlasa, dolları çox baha satmalıdır. O da bunu etiraf etmək istəmir, hamını aldadır. Və nəticədə hətta banklar da vəziyyəti başa düşür və əlində olan dolları da satmır. Başa düşürlər ki, əslində dollar bahalaşıb. Buna görə də heç kəs dollarından məhrum olmaq istəmir. Əslində Mərkəzi Bankın rəsmi məzənnəsi o deməkdir ki, həmin məzənnə ilə banklara istənilən qədər dollar satmağa hazırdır. Tutaq ki, mən çıxıb evimin qiymətini deyirəm. Bu, o deməkdir ki, kim gəlsə, o qiymətə evimi satacam. Mərkəzi Bank isə deyir ki, dolların qiyməti bu qədərdir, 1 manat 56 qəpikdir. Amma satmır. Məndə başqa şübhələr də var. Ehtimal var ki, milli valyuta Mərkəzi Bank tərəfindən elan ediləndən əslində dövriyyədə çoxdur. Dövriyyədə qeyri-rəsmi çap olunmuş və dövriyyəyə buraxılmış milli valyuta var. Başqa şübhəm də odur ki, bəlkə Mərkəzi Bankın heç o 6 milyardı da yoxdur. Mərkəzi Bank hamını aldadır, sadəcə, 6 milyardı yoxdur. Elan edib, göstərib, ancaq dollar sata bilmir. Çünki elan edir ki, bu dəqiqə dövriyyədə olan milli valyutanın həcmi 6 milyarddır. Mərkəzi Bank elan edir ki, altı milyard 730 milyon manat var. Amma deyir ki, özünün valyuta ehtiyatı 6 milyard 245 milyon dollardır. Dolları manat ekvivalentində, indiki məzənnə ilə vursaq, 9 milyard 794 milyon manat edir. Yəni 9 milyard 794 milyon ekvivalentində dollar var. Amma dövriyyədə olan milli valyuta 6 milyard 730 milyondur. Yəni 3 milyard artıq qalır hələ. Yəni sənin bu qədər dolların varsa, nədən qorxursan? Dövriyyədə manat azdır artıq. Səndə isə dollar çoxdur. Deməli, hətta bütün manatları da sənə versələr, yenə sənin dolların qalacaq. Buradan belə nəticə çıxır ki, ya dövriyyədə milli valyuta çoxdur, ya da Mərkəzi Bankın elan etdiyi qədər dolları yoxdur".

❑ RÖYA

# Soğan satanlardan Aqil Abbasa acı sözlər

## Satıcılar "soğan əkmək bir yana, satmaqla da ailə saxlamaq mümkün olmayacaq" deyirlər

**Son günlər deputat Aqil Abbasın "get soğan ək ailəni saxla" deməsi geniş müzakirə obyektinə çevrilib. A.Abbas iş və ucuzluq istəyən əhalinin etirazları ilə bağlı AzadlıqRadiosuna danışarkən bunları bildirib: "İş yeri tikirlər, sahibkarlar da yer açır ki, camaatı işlə təmin etsinlər. Amma hamını işlə təmin etmək... Amerikada hamı işlə təmin edilib? Ya İngiltərədə, ya Fransada, ya qardaşımız Türkiyədə? Dövlət qulluq vermirsə, sənə torpaq verir. Get orda soğan ək, ailəni saxla. Məsəl üçün deyirəm ha bunu. Mən də istəyərəm hamı işlə təmin olunsun".**

Deputatın bu fikir birmənalı qarşılanmayıb. Kimisi A.Abbasın fikirlərinə dəstək olub və bildirib ki, həqiqətən də əziyyət çəkən ac qalmaz, kimisi də onu bu sözlərinə görə qınayıb.

*Bəs, həqiqətən də soğan əkməklə ailə saxlamaq mümkündürmü?*

Suala cavab tapmaq üçün paytaxt bazarlarında alver edən soğan satıcıları ilə söhbət etdik.

Satıcılar musavat.com-a açıqlamalarında öncə problemlərindən danışdılar və bildirdilər ki, soğanı əkib bazara çıxarmaq çətin məsələdir. Ancaq çıxara bilsən, pul da qazanarsan, ailəni də saxlayarsan. Satıcı Qəzənfərin sözlərinə görə, Bakıda soğanı əksər satıcılar bir yerdən alırlar: "Əksəriyyət "Meyvəli"dən gedib alır. Elə biz də gedib oradan şərikimizlə birlikdə maşına yükləyib, gətirib bazara veririk. Yəni özümüz əkib becərmirik. Ona görə də bizə buradan qalan qəpik quruşdur. Soğanın bir kisəsi hazırda 19-20 manatadır. Maşın, yer xərcini çıxanda, bizə buradan 40-50 qəpik qalır. Özüm


Aqil Abbas

Beyləqan rayonundanam. Əvvəllər biz də soğan əkirdik. Ancaq adamdan elə qiymətə alırlar ki, sərf eləmir əkmək. Əziyyətimiz elə özümüzə qalırdı. İndi heç olmasa kisəsinə 50 qəpik də olsa qazana bilirik. Əkəndə isə elə olurdu ki, heç mayanı da çıxara bilmirdik. Ona görə də elə əziyyət çəkib əkib qazanmayınca, satıcılıq edib heç olmasa zülmümüzü azaldırıq. İndi bazara çıxarılan soğanlar yayda alınıb saxlanılanlardır. O vaxt manat da indiki kimi deyildi. Yəqin ki, növbəti ildən qiymətlərdə fərq olacaq. Onda heç soğan əkmək bir yana, satmaqla da ailə saxlamaq mümkün olmayacaq".

**Digər satıcı Qasım isə bildirdi ki, Aqil Abbas doğru söyləyib. Soğan əkib satmaqla dolanmaq olar. Ancaq bu işin də öz "əmması" var:** "Birincisi, soğan əkmək asan iş deyil. Bunun da öz üsulu var. Bu üsulu bilmək lazımdır. Ağdamda, Beyləqanda soğan əkmək üçün təbii şərait var. Orada soğan əkənlər də var. Deputat düz deyir ki, əziyyət çəkib soğan əksən, satıb ailəni dolandıra bilərsən. Ancaq bir şey də var ki, gərək sata biləsən də. Şəhərdən gəlirlər yığırlar maşınlara aparırlar. Elə qiymət deyirlər ki, heç əziyyətinə dəymir. Hökumətimiz kömək eləsə, yaxşı qiymətə alsa, məncə, hər kəs özü əkib, məhsulunu bazara çıxarar. Yoxsa satanda ancaq mayanı çıxarmaq mümkün olacaqsa, daha nə oldu? Ya da ki, bizə şərait yaratsınlar gəlib bazarda rahat şəkildə malımızı sata bilək. Yoxsa hansısa topdansatış yerlərinə verməyə məcbur olmayaq. Həmin topdansatış yerləri də məhsulu maya dəyərindən də aşağı alır. Bu da heç kimə sərf eləmir. Soğanı həyətdə özümüz, qohum-qonşu üçün əkirik. Ancaq bunu satış üçün əkmək indiki şəraitdə dediyim kimi sərf eləmir, ay qardaş".

❑ Əli RAİS
❑ Fotolar müəllifindir

# Manatı daha ciddi təzyiqlər gözləyir - ekspert

## Neftin yenidən bahalaşacağı əlçatmaz arzuya çevrilir...

**İranın neft bazarına daxil olması ilə neftin qiymətləri yenidən müzakirə olunmaqdadır. Neftin qiymətinə yönələn əksər proqnozlar nikbin deyil. Hazırda Brent markalı neft 2004-cü ilin fevralından bəri ilk dəfə 29 dollardan aşağı düşüb. ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 6,49 faiz azalaraq 28,88 dollaradək düşüb.**

**"Bloomberg"**in xəbərinə görə, İran artıq yanvarın 18-dən neft üçün "qara bazar ertəsi" planlaşdırır. Sanksiyalar götürüləndən sonra İran neft bazarına daha ucuz qiymətlərlə girəcək, onsuz da aşağı olan neft qiymətləri bir az da düşəcək. Bu barədə artıq həmin ölkənin **xarici işlər nazirinin müavini Abbas Arakçi** də anons edib. İranın bazara girməyindən ən çox qorxan ölkələrdən biri də Rusiyadır. Bu, neftdən asılı olan ölkələr üçün "iqtisadi facie" adlandırılır. Daha əvvəl **Rusiyanın energetika naziri Aleksandr Novak** bildirib ki, İran sutkada 2,5 milyon barel neft ixrac etmək iqtidarındadır. Amma İran bu mövzuda tələsik açıqlamalar verməyə meyl etmir. **İranın neft naziri Bidjan Zanqane** sanksiyaların ləğvindən sonra sutkalıq neft çıxarışının 500 min barrel olacağını qeyd edib. Hər halda bu iki fərziyyənin hansının real olduğu yaxın 1-2 həftə ərzində bilinəcək.

Bundan əlavə, İsrailin araşdırma şirkəti olan **"Windward"** daha maraqlı məlumat yayıb. Həmin məlumata görə, sanksiyaların ləğvinin mümkünlüyünü bilən İran hələ 2015-ci ilin baharından neft istehsalına başlayıb. "Windward" hazırda İranın 28 supertankerlik neft xammalının olduğunu bildirir. Və sabahdan həmin 51 milyon barrellik ehtiyat dünya bazarına çıxarılaraq qiymətləri "dağıdacaq".

Qiymətin düşməsi ilə Qərbi Avropanın ən böyük neft ixracatçısı olan ölkədəki istehsal 2008-ci ildəkindən daha kritik durumdadır. **Norveçin Neft İdarəsinin rəhbəri Bente Nyland** yerli mediaya açıqlamasında bildirib ki, Norveçin neft sənayesi böhrandadır və bunu inkar etmək mümkün deyil. Brent neftin bir barelinin qiyməti aşağı düşərək, son nəticədə öz dəyərini 4 faiz itirib. Qərbi Teksas növlü xam neftin (WTI) bir bareli isə günə 31,21 dollar qiymətlə baş-



ladığı halda, hazırda 29,69 dollardan satılır. Bu isə onun 4,9 faiz ucuzlaşdığını göstərir. Analitiklər isə neftin qiymətlərində yaşana biləcək qiymət artırımının qalıcı olmadığını iddia edirlər. Onların fikrincə, 30 dollarlıq qiymət kritik dəstək statusundadır. Qiymət daha da aşağı düşərsə, satış qrafiki yüksələ bilər.

**Ekspert Natiq Cəfərli** isə bildirib ki, ABŞ və Qərbin İrana qarşı sanksiyalarını götürməsi gözlənilən addım olub. Onun fikrincə, qərar dünya neft bazarına da təsir edəcək: "Bundan sonra neftin qiymətinin ucuz qalması ehtimalı daha da gücləndi. Çünki İran ilkin mərhələdə gündə 500 min barel, 6 aydan sonra daha 500 min barel bazara neft çıxaracaq, artıq müqavilələr imzalanıb. Bu amil neft bazarında qiymətlərə təsir edəcək. Dünya üçün ikinci pozitiv təsir 80 milyon əhalisi olan ölkənin qapılarının açılmasıdır. Bu, böyük investisiya imkanları olan bazardır. Avropa ölkələri bu bazarda özlərinə yer tutmağa çalışacaqlar. Azərbaycan normal istisadi-siyasi kurs aparsa, o bazarda kiçicik də olsa, özünə yer götürər. Amma indiki şəraitdə, bu, çox çətin görünür. Hər halda, qonşu ölkədə belə imkanın yaranması Azərbaycan vətəndaşları üçün iş tapmaq baxımından müsbətdir".

**"Moody's" beynəlxalq reytinq agentliyinin analitiki Mariya Malyukova** isə bildirib ki, Azərbaycanın milli valyutası olan manatın məzənnəsi əsasən neftin qiymətinə bağlıdır və bununla bağlı proqnoz verməkçətindir: "Hər şeyi neft qiymətlərinin dinamikası göstərəcək".

Yeri gəlmişkən, **Böyük Britaniyanın "Standard Chartered"** bankı neftin gələcək qiymətləri ilə bağlı pessimist proqnoz verib. **"Standard Chartered"** bankı "qara qızıl" qiymətlərinin 10 dollara qədər ucuzlaşacağını gözləyir: "Hesab edirik ki, əsas oyunçular hər şeyin çox gec olduğunu anlayan zaman neft qiymətləri 10 dollara qədər ucuzlaşmış olacaq". **"Reuters"**in məlumatına görə, dünyanın bir çox bankları (**"Barclays", "Macquarie", "Bank of America", "Merill Lynch"** və **"Societe Generale"**) 2016-cı illə bağlı öz proqnozlarını mənfiyə doğru dəyişiblər. Analitiklərin fikrincə, Çin iqtisadiyyatındakı ləngimə ilə yanaşı, dünya bazarlarında sutkada 1,5 milyon barel neftin artıq hasil olunması qiymətləri ucuzlaşdıran əsas amillərdir.

❑ RÖYA

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016

# Təcridxanadakı intiharla bağlı sensasion iddia




# MTN polkovnikinin müəmmalı ölümünün şok sirri- "Danışacam..."

## İlqar Əliyev hakimiyyətdəki konkret ünvanları kompromatlarla hədəfə alıbmış; Bakı Apelyasiya Məhkəməsində o, susmayacağını açıq şəkildə ortaya qoyub və...

**Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin saxlanıldığı Bakı İstintaq Təcridxanasında (BİT) ölümü üzərində sirr pərdəsi qalmaqdadır. Yanvarın 20-də onun ölümünün 1 ayı tamam olacaq. Ötən müddət ərzində İ.Əliyevin ölümü ilə bağlı yayılan rəsmi məlumatı şübhə altına alan kifayət qədər əsaslı dəlillər ortaya çıxıb.**

İlqar Əliyevin BİT-dəki kamerada özünü asmaq istəyinin sadəcə, mümkünsüz olduğu ortaya qoyulub. Üstəlik, onun ölümündən 2 gün sonra BİT-dən onun kamera yoldaşı olduğu deyilən digər məhkum Manaf Paşayevin də meyiti aşkar olunub. Rəsmi məlumatda onun da özünü asdığı bildirilib.

Belə ehtimallar da irəli sürülür ki, M.Paşayev İlqar Əliyevin ölümü haqda məlumatlara malik olub və bu üzdən o da eyni üsulla aradan götürülüb.

Əldə etdiyimiz son bilgilər İlqar Əliyevin həbsindən sonra susmaq niyyətində olmadığını deməyə əsas verir. Belə ki, qaynağımız iddia edir ki, saxlanıldıqdan sonra barəsindəki həbslə əlaqəli təqdimata baxılarkən İlqar Əliyev konkret ünvanları silkələyəcək fikirlər səsləndirib. Tezliklə azad edilməyəcəyi təqdirdə bildiklərini geniş ictimaiyyətə çatdıracağı ilə bağlı mesajlar verib. Bir sözlə, kompromatları üzə çıxaracağının anonsunu verib. Səbayel Rayon Məhkəməsində barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilərkən bir qədər ümumi danışan İlqar Əliyev Bakı Apelyasiya Məhkəməsində fikirlərini konkretləşdirib, daha kəskin çıxış edib. Ona "bu gedişlə özünü yandıracaqsan", - deyilsə də, İlqar Əliyev susmayacağını dəfələrlə ifadə edib.

İlqar Əliyevin bildikləri siyasi-kriminal janrda çoxsaylı kitabların ana xəttini təşkil edə bilərdi söyləsək, yanılmarıq. Çünki onun adı ictimai-siyasi olaylarda daim qırmızı xətlə keçib, ən qalmaqallı proseslərin yönləndiricisi kimi məhz MTN polkovnikinin silueti görünürdü. Belə bir şəxsin danışmasının hədəf götürdüyü şəxslər üçün elə də yaxşı nəticələr verməyəcəyini izah etməyə də ehtiyac yoxdur.

Məsələnin bu tərəfi də var ki, İlqar Əliyev illərlə MTN rəhbərliyinə daxil olan şəxs kimi ölkənin ictimai-siyasi həyatında xoş olmayan xatirələrlə anılan hərəkətləri öz şəxsi istəyi ilə törətməyib. Onun göstərişlə işlədiyi, ona tapşırılan məsələləri icra etdiyi də bəllidir. Bu baxımdan onun hər iki məhkəməsində hədəf götürdüyü kəslərin məhz onun keçmiş rəhbərliyi, o cümlədən də hazırda vəzifələrdə sıxılıb, qalmağı bacaran Mahmudovçu qrup olduğu bəllidir.

İlqar Əliyevin müəmmalı ölümündən sonra yayılan rəsmi məlumata ictimaiyyətin böyük əksəriyyəti inanmadı. Sonradan o da üzə çıxdı ki, polkovnikin ailəsi də onun intihar etdiyinə inanmır. İlqar Əliyevin ailəsinə yaxın mənbə "Yeni Müsavat"a demişdi ki, ailə üzvləri onun həyatla öz xoşu ilə vidalaşdığına inanmadıqlarını istintaqçılara bildiriblər.

Həmin vaxt qaynağımız çox maraqlı bir məqamları aydınlaşdırmışdı. İlqar Əliyevin özünü müdafiə etməsi üçün vəkili ilə birgə müdafiə taktikası hazırladığını müxbirimizə xüsusi olaraq vurğulamışdı.

**Həmin yazıdan sitat:** "İlqar Əliyev ölümündən az əvvəl həyat yoldaşı ilə telefonla danışıb, hər şeyin normal olduğunu deyib. Onun iki uşağı var, yoldaşından uşaqlarını soruşub. Deyib ki, hər şey yaxşı olacaq. Yəni özü də bilirdi ki, 10-12 il cəza verilə bilər. Həbsə düşməyindən narahat olub, bədbin, fikirləri qarışıq olub. Amma özünü asması heç ağla gələn məsələ deyil", - deyə, mənbə bildirmişdi. Əlavə etmişdi ki, ailəsi baş vermiş hadisənin şokundadır: "O, niyə belə edib, bilmirlər. Həbsindən sonra həftədə iki dəfə ailəsi ilə danışıb. Onlara da deyib ki, narahat olmasınlar. Elə bilsinlər ki, bir ötəri hadisədir. Deyib ki, atası, qardaşı çox da qüssələnməsin. Bir işdir başına gəlib. Yəni İlqar Əliyev həbs olunmasından narazı olub. Amma onun özünü asması üçün əsasları olmayıb. Onun ölümündən sonra vəkili də ailəsinə deyib ki, İlqarın vəziyyəti pis olmayıb. Onunla məsləhətləşmələr aparıb, müdafiə taktikası qurub, vəsatətlər hazırlayıblar. Vəkili hər gün onunla görüşüb, nə edəcəklərini müzakirə ediblər. Adam özünü asacaqdısa, niyə müdafiə olunmağa hazırlaşıb?"

Ümumiyyətlə isə bu gün də polkovnik İlqar Əliyevin BİT-də özünü asmasını şübhə altına alan çoxsaylı məlumatlar dolaşır. Belə ki, polkovnikin mələfəni haradan alması, özünü haradan və necə asması, BİT nəzarətçilərinin həmin vaxt harada olmaları, həmçinin kamera yoldaşının kimliyi və sonradan intihar etməsi və s. digər suallar cavabsız qalıb. İlqar Əliyevin intiharı ilə bağlı mövzunun bu qədər aktual olmasına gəlincə, o, MTN-də sıradan bir işçi olmayıb. Adı illərlə ictimai-siyasi fəallara qarşı qanunsuz əməliyyatlarda hallanıb.

Qeyd edək ki, ötən ilin oktyabr ayında İlqar Əliyevin barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilmişdi. O, Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.1 (vəzifə səlahiyyətlərini aşma) və 302.2-ci (əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma) maddələri ilə təqsirləndirilirdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Rüfət Səfərov siyasi məhbus sayılacaqmı?

## Hüquq müdafiəçilərinin fikirləri müxtəlifdir; YAP funksionerinin oğlu təcridxanaya köçürülüb; vəkil onunla görüşüb; qərardan bu gün şikayət veriləcək

**Yanvarın 15-də Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəhbəri, alovlu YAP-çı Eldar Sabiroğlunun Zərdab rayon prokurorluğunda tutduğu vəzifədən qovulan oğlu Rüfət Səfərov həbs edildi. Dekabrın 20-də müstəntiq vəzifəsindən istefa verən YAP funksionerinin oğlu barəsində bir müddət öncə cinayət işi başlanılmışdı. O, rüşvət almaqda ittiham olunur.**



Onun həbsində siyasi çaların olduğunu düşünənlər az deyil. Çoxları hesab edir ki, R.Səfərovun vəzifəsindən istefa verməsi, ardınca hakimiyyət barədəki açıqlamaları onun həbsinə səbəb olub. Yerli və beynəlxalq hüquq təşkilatlarının onu siyasi məhbus kimi tanıyıb-tanımayacaqları sual doğurur.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** sabiq müstəntiqin həbsini siyasi yox, qərəzli hesab etdiyini söylədi: "Hüquq müdafiəçilərinin adından danışa bilmərəm. Rüfət Səfərov hüquq-mühafizə orqanlarında çalışıb və işlədiyi sahədə aparılan siyasətlə, fəaliyyətlə və.s razılaşmayıb, öz rəhbərliyinə etirazını bildirib. Qarşılıqlı olaraq Baş Prokurorluq yoxlama aparıb və onu həbs edib. Düşünürəm ki, əslində hüquq mühafizə orqanlarında belə yoxlamalar aparılsa, bir çox adamı həbs etmək və yaxud işdən çıxarmaq olar. Rüfət Səfərovun həbsini siyasi yox, qərəzli hesab edirəm. Ölkədə isə belə qərəzli və ədalətsiz həbs olunanlar çoxluq təşkil edir. Hər qurum ona qarşı çıxanlarla öz üslubu ilə hərəkət edir. İş yerlərində işdən qovmaqla, hüquq mühafizə orqanlarında həbs etməklə..."

**Dilarə Əliyeva adına Qadınların Hüquqlarını Müdafiə Cəmiyyətinin rəhbəri Novella Cəfəroğlu** isə R.Səfərovu siyasi məhbus sayacaqlarını bildirdi: "Əlbəttə, onu siyasi məhbus kimi tanıyacağıq. Ona görə ki, bu şəxs öz fikrini azad şəkildə deyib. Bu baxımdan düşə bilər siyasi siyahısına. Tək qərar verə bilmərəm. Biz yığışırıq, birlikdə qərar veririk. Amma bu şəxsi siyasi məhbus elan etmək olar. Bu kriteriyalara cavab verir".

**Hüquq müdafiəçisi Arzu Abdullayeva** məsələni tam araşdırandan sonra bu barədə qərar verməyin doğru olduğunu söylədi: "Əvvəlcə baş verənləri tam yoxlamalıyıq. Onun barəsində ilk fikir belədir ki, mərd insandır. Etiraz etdiyinə görə, həbs olunub. Amma bəzi yoxlanmalı meyarlar var. Bunlar yoxlanılmalı, doğrudursa, siyasi məhbus kimi onu tanıyacağıq. İlk düşüncəmiz onun siyasi məhbus olmasıdır. Məhkəmə prosesi başlayanda çox həqiqətlər üzə çıxacaq. İşin mahiyyətinin nə dərəcədə siyasi olduğu o zaman məlum olacaq".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səadət Bənəniyarlı** məsələni nəzarətə götürdüklərini bildirdi: "İndiyə qədər məsələdə siyasi motivlərin olduğunu hələ ki görürük. Əgər onun çıxışlarından qabaq bu hadisə baş versəydi, başqa cür qiymətləndirərdik. Məlumatlar üzə çıxdıqca, araşdırmanı sürətləndirəcəyik".

Qeyd edək ki, R.Səfərov artıq 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb.

**Rüfət Səfərovun vəkili Bəhruz Bayramov**dan son durumu öyrəndik. O, hüquqlarını müdafiə etdiyi şəxsin həbsi ilə bağlı bunları dedi: "O, barəsində çıxarılan qərarı absurd adlandırdı. Gülərək qarşıladı. Həbsinə hazır idi. Özü də bunu bildirdi. Səhhəti, əhval-ruhiyyəsi normaldır. Bir az təzyiqi qalxmışdı. O da həbslə bağlı deyildi. Səhhətində tez-tez bu hallar olur. Şənbə günü onunla görüşdüm. İstintaq hərəkətləri ilə tanış olduq. Şənbə və bazar günləri iş günü olmadığından qərardan bazar ertəsi apelyasiya şikayəti veriləcək".

**Xatırladaq ki, R.Səfərova qarşı Cinayət Məcəlləsinin 311( rüşvət alma) maddəsi ilə cinayət işi başlanılıb. Barəsində ilkin istintaq dövrü üçün 3 aylıq həbs qətimkan tədbiri seçilib.**

❑ **Cavanşir ABBASLI**



# PKK əvvəlcə uşaqları qətlə yetirdi, sonrasa üzr istədi

**PKK terror təşkilatı öldürdüyü uşaqlara görə üzr istəyib. Musavat.com xəbər verir ki, bu barədə məlumat Türkiyə mətbuatında yer alıb. Məlumata görə, Diyarbəkirin Çinar bölgəsindəki polis mərkəzində qarşısında bomba yüklənmiş maşının partladılmasını PKK-nın silahlı qanadı HPG öz üzərinə götürüb.**

HPG-nin yazılı açıqlamasında "Ölən vətəndaşlar və uşaqlara görə təəssüf hissi keçiririk" sözləri yer alıb. Açıqlamada həmin hücumun PKK-nın Van şəhərində öldürülən 12 üzvünün intiqamını almaq üçün təşkil olunduğunu da qeyd ediblər.

Xatırladaq ki, S.Dəmirtaş ölən vətəndaşlar və uşaqlara görə məsul şəxslərin üzr istəməli olduqlarını bildirmişdi.

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016

# Soğan



Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Biz elə buna görə neçə vaxtdır yazırıq ki, ehtiyatlı olmalıyıq, hər an xoşagəlməz hadisələr ola bilər. Budur, cəmiyyətdə aqressiya o qədər çoxdur ki, Aqil Abbasın soğan kəlməsi aləm qatıb. Əslində qeyri-adi bir söz deməyib, bəzi həmkarlarından fərqli olaraq, çəkinmədən narazı adamların ayağına gedən deputat adamlarla imkanı çatan qədər açıq danışıb və "kartof-soğan əkin" deyib.**

Təbii ki, Aqil bəy soğan biznesinə girişən məmur-oliqarxlara çağırış etsəydi, o halda sadə insanların təpkiləri olmayacaqdı. Hərçənd fərqli istiqamətdən hücuma məruz qalacaqdı. Necə ki, Zahid Oruc son günlər dedikləri ilə çoxlarının ürəyinə su səpdi, bəzilərinin xətrinə dəysə də...

Ötən həftə baş nazir Əhməd Davudoğlu Türkiyədə fəaliyyət göstərən xarici iş adamları ilə görüşdü, onları Türkiyəyə əlavə yatırım qoymağa, daha çox qazanmağa çağırdı. Azərbaycan hökumətinin ölkədəki nəinki əcnəbi, heç yerli iş adamları ilə də görüşünü görmürük. Son ayda bir neçə əcnəbi şirkəti ölkəmizdən gedib. Bu prosesi dayandırmaq lazımdır.

Hər bir əcnəbi şirkət həm də təhlükəsizliyin qarantı rolunda çıxış edir. Onlar burda qaldıqca ölkələri də Azərbaycanda sabitliyin olmasında maraqlı olacaqlar. 1999-cu ildə türk diplomatlarının biri ilə həmsöhbət olmuşdum. Qeyri-rəsmi demişdi ki, 40 iş adamının qısa vaxtda Azərbaycandan getməsi onun ölkəsində narahatlıq doğurub. Sahibkarlığa geniş meydan verilsəydi, bu gün siyasətlə məğşul olmayan, sadə vətəndaşlarımız meydanlara çıxmazdı.

Bu gün bütün məsuliyyəti olan-qalan sahibkarların üzərinə qoymaq da olmaz, bu adamları dinləmək lazımdır. Bəlkə elə təkliflər verəcəklər, Azərbaycan 3-5 aya bütün bu bəlaları adlayıb keçəcək, ölkədə mal və pul bolluğu yaranacaq. Lap xaricdəki milyarder azərbaycanlılara rəsmi müraciət etmək olar, gəlsinlər, hərəsi 1-2 milyard vəsait qoysunlar, iş yerləri açsınlar, özləri də qazansınlar.

Hökumət vəziyyəti ciddi təhlil etməlidir: niyə iş adamı ölkədən KamAZ-la pul daşıyır, səbəb nədir? Əgər normal mühit yaradılsa, qarantiya olsa, inhisarçılığa son qoyulsa, hansı sahibkar maşın-maşın pulunu vətəndaşı olduğu ölkədə yox, başqa məmləkətdə dövriyyəyə buraxar? Prezident dəfələrlə bəyan edib, xəbərdarlıq edib, yenə də inhisarçılar meydan sulayırsa, deməli, daha sərt tədbirlərə zərurət var.

2008-ci ildəki parlament müzakirəsində deputat Miri Qənbərov yazılmış çıxışı oxuyanda birdən dayandı, "nə böhran ə, bunu bura kim yazıb" deyərək, o biri cümləyə keçdi. Mətndəki "böhran" sözünü belə dilə gətirmək istəmədi. Adını dilə gətirmədiyimiz indi evimizə girib...

Hökumət, nəhayət, xalqa yönəlik qərarlarını verməli, günahı tək neftdə, dollarda yox, həm də özündə axtarmalıdır. Məsələn, kənd təsərrüfatı naziri çıxıb deməlidir ki, "Kənd təsərrüfatı ili"ndə Aqil Abbasın seçicisi niyə soğan əkməyib? Bəlkə əkib, deputat bilmir.

Lap elə Milli Məclisin 19 yanvarda keçiriləcək xüsusi iclasında yeni hökumətin qurulmasını da müzakirə etmək olar. Adı heç bir neqativlərdə hallanmayan, öz işinin ustası olan baş nazir Artur Rəzi-zadəni hörmət-izzətlə yola salmaq şərtilə. Bu dəyişiklikləri narazı elektoratı bir az da sakitləşdirir, ümidlər yaradar.

Bu prosesdə gözlər yalnız prezidentə dikilməməlidir. Ölkənin başçısı Davosa gedib daha qlobal məsələlərin müzakirəsinə qatılsın, yoxsa yumurtanın, çörəyin qiymətini artıranlarla mübarizə aparsın? Niyə komanda fədakarlıq etmir, bir məmur çıxıb "bağışlayın, cənab prezident, etimadınızı doğrultmadım" demir?

Parlament, nazirlər, komitə sədrləri, hər bir məsul şəxs bu prosesdə üzərinə düşəni etsə, vəziyyətin nəzarətdən çıxmasının qarşısını almaq olar. Niyə heç kim fədakarlıq etmək istəmir? Bu illərdə böyük sərvətlər qazanıblar, xalqı demirik, heç olmasa prezidentin səsinə səs versinlər, inhisarı dayandırsınlar, xaricə yatırılan pulları gətirib ölkədə iş yerləri açsınlar. Etiraz edənlərin əksəriyyəti gənclərdir, işçi qüvvələridir. Bu gün onlara iş yeri yaratmaq üçün hansı məmur-oliqarx konkret hərəkətə keçib?

Konkret addımlar atılmasa, inzibati metodlar uzun müddət üçün effektli olmayacaq. Adamları küçədən qovacaqsan, gedəcək borca görə özünü asacaq, yandıracaq. Necə ki, hətta "intihar edənlərin borcunu ailəsi ödəyəcək" xəbərdarlığına da məhəl qoyulmur. Özünü öldürməyə qadir olanlar çox təhlükəlidir. Mənim sözüm deyil, Barak Obamadan eşitmişəm...

**Açıq danışmalıyıq. Təbii ki, həqiqət acıdır, soğan kimi. Ancaq soğanın qoxusu belə göz yaşardıcı olsa da, təbii antibiotikdir...**

# YAP rəhbərliyi müxalifətin antiböhran toplantısına qatılacaq

## Aydın Mirzəzadə: "Müxalifətin bəzi təklifləri qəbul edilə bilər..."

**Yanvarın 24-də bütün müxalifət düşərgəsinin, ayrı-ayrı nüfuzlu ictimai xadimlərin toplantısının keçirilməsi planlaşdırılır. Bu barədə "Ağ Blok"un həmtəsisçisi Tural Abbaslı "Yeni Müsavat"a məlumat verməşdi. Onun dediyinə görə, toplantının məqsədi ölkədə yaranmış vəziyyəti birgə müzakirə etmək, çıxış yolları istiqamətində vahid mövqeyə gəlməkdir.**

T.Abbaslının sözlərinə görə, toplantının ADP-nin böyük zalında saat 2-də keçirilməsi planlaşdırılır. Tədbirə hətta hakimiyyət nümayəndələrinin də dəvəti nəzərdə tutulur: "YAP rəsmiləri Siyavuş Novruzov və Aydın Mirzəzadə mətbuata bildiriblər ki, hakimiyyət, hakim partiya təklifləri dinləməyə hazırdır. Ona görə də hesab edirik ki, onlar da 24 yanvarda keçiriləcək toplantıya gəlsinlər, təklifləri dinləsinlər, özlərinin sözləri varsa ifadə etsinlər. Bu, ümumi problemlərin həlli istiqamətində atılmış ilk konstruktiv addım kimi qiymətləndirilsin".



Bəs, YAP-a bu toplantıda iştirak üçün dəvət olsa, hakim partiya qəbul edəcəkmi? **Hakim partiyanın İcra Katibliyinin siyasi təhlil və informasiya şöbəsinin müdiri Aydın Mirzəzadə** bildirdi ki, əgər rəsmi şəkildə dəvət olacaqsa, yəqin məsələ partiya daxilində müzakirə ediləcək və cavab veriləcək: "Mən hesab edirəm ki, müxalifət bu cür müzakirələr və təkliflər məsələsində gecikib. Dekabrın 21-də manatın ikinci devalvasiyası oldu, lakin müxalifət hələ indiyə qədər ortaya hər hansı ciddi təkliflər qoymayıb. Hakimiyyətə iddialı müxalifət ortaya çoxdan təkliflər qoymalı idi. Bundan sonra hansısa toplantı keçirsələr və təkliflər müəyyən edib hakimiyyətə, YAP-a göndərsələr baxılacaq, maraqları olacaqsa birlikdə oturub müzakirə ediləcək. Amma müxalifətin təklif göndərib-göndərməməsindən asılı olmayaraq iqtidar üzərinə düşən vəzifəni yerinə yetirir. Onun dəqiq antiböhran proqramı var. Əhalinin bahalşamadan əziyyət çəkməməsi üçün konkret addımlar atılır. Bütün bunlar cəmiyyət tərəfindən dəyərləndirilir".

***"Bir neçə tanınmış müxalifət partiyasının ötən həftə mətbuatda antiböhran təklifləri dərc edildi. Onlarla tanışsınızmı, necə qiymətləndirirsiniz"*** **sualına Aydın Mirzəzadə belə cavab verdi:** "Yeni Azərbaycan Partiyasının icra katibliyinin siyasi təhlil və informasiya şöbəsinin müdiri kimi mən mətbuatda gedən bütün bu məsələləri yaxından izləyirəm. İki partiyanın "Anti-böhran proqramı" adlı sənədi ortadadır. Mətbuatda dərc edilən həmin sənədlərlə tanışam. Həmin proqramların böyük bir hissəsi siyasi deklarasiyadır, siyasi maraqlar önə çəkilir. Edilən təkliflərin böyük bir hissəsi artıq hökumət tərəfindən həyata keçirilib və keçirilməkdədir. Həmin partiyalar öz proqramlarında hakimiyyətin atdığı addımları təklif kimi ortaya qoyur. Bir neçə təklifi isə bu müzakirə mövzusu ola bilər. Həmin təkliflərin bəzisi qəbul edilə bilər. Bəzi təkliflər isə sadəcə olaraq bəyanatdır, onların qəbul edilməsi problemlər yarada bilər. Azərbaycanda 55 siyasi partiya var. Bunların böyük hissəsi kiçik də olsa müxalif partiyalardır və proseslərdə rolları görünmür, siyasi bəyanatdan o tərəfə keçmirlər, ortada proqramları, təklifləri yoxdur. Bu baxımdan əgər növbəti təkliflər olacaqsa, əlbəttə onlar dəyərləndiriləcək".

❑ **Etibar SEYİDAĞA**

# Parlamentin növbədənkənar iclası gərgin keçəcək

## Gündəlik elan edilməsə də, aktual mövzular bəllidir...

**Milli Məclisin deputatları növbədənkənar iclas üçün toplaşacaq. Yanvarın 19-da keçirilməsi nəzərdə tutulan iclasda hansı məsələlərin müzakirə olunacağı isə hələ ki mətbuata açıqlanmır.**

Qeyd edək ki, parlament hazırda tətildədir. Milli Məclis ötən il dekabrın 30-da qış sessiyasının sonuncu plenar iclasını keçirib. Yaz sessiyasının ilk plenar iclasının fevralın 1-də keçirilməsi planlaşdırılmışdı.

Milli Məclisin vaxtında əvvəl toplanmasının səbəblərinə və bu iclasda müzakirə ediləcək mövzulara gəlincə, Məclis üzvlərinin də hələ ki, bundan xəbəri yoxdur. Bunu "Yeni Müsavat"a açıqlamasında deputat, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bildirdi.

**Parlamentin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** isə "Yeni Müsavat"a açıqlamasında gözləntilərinə əsaslanaraq bildirdi ki, əsas məsələlərdən biri büdcəsinin müzakirəsi olacaq: "İclasın gündəliyi haqqında bizə məlumat verilməyib. Ancaq mən hesab edirəm ki, bu iclasda əsas məsələ büdcə müzakirəsi olacaq. Həmçinin 30 min manata qədər əmanətlərin sığortalanması məsələsində bu limitin ləğv edilməsi də müzakirə oluna bilər. Yəni təkcə 30 min manata qədər olan əmanətlər deyil, istənilən məbləğdə olan əmanətlər müzakirə oluna bilər. Biz həm Mərkəzi Banka, həm də hökumətə belə bir təklif vermişik".



**Dollarla olan kreditlərin 1.05 məzənnəsi ilə qaytarılması məsələsinin müzakirəsinə gəlincə, Vahid Əhmədov bildirdi ki, bu, Milli Məclisə aid məsələ deyil:** "Bu, birbaşa Mərkəzi Bankla hökumətin məsələsidir. Ancaq əsas məsələ əmanətlərin sığortalanmasında "30 min manata qədər" limitinin götürülməsidir. Bu həm banklara, həm də əhaliyə lazımdı".

**Dövlət büdcəsində neftin 50 dollardan daha aşağı hesablanması məsələsinin də müzakirə oluna biləcəyinə toxunan deputat qeyd etdi ki, neftin qiymətinin 30 və ya 20 dollardan hesablanacağı haqqında söhbətlər var:** "Hələ ki, bu haqda söhbətlər gedir, lakin konkret sənədlər yoxdur. Maliyyə Naziri Samir Şərifov bizimlə söhbətində bildirdi ki, neftin qiyməti ilə bağlı 3 variant var. Bu variantlardan hansı məqbul sayılsa, o, Milli Məclisə təqdim olunacaq. Əgər bu iclasda dövlət büdcəsinə yenidən baxsaq, o zaman dövlət büdcəsi haqqında qanuna dəyişiklik etməliyik. Qanuna əsasən, bu ilin may-oktyabr ayrında büdcəyə yenidən baxıla bilər. Mən hesab etmirəm ki, bu iclasda dövlət büdcəsinə baxılacaq. Əsas məsələ əmanətlərin sığortalanmasını limitsiz etmək olacaq".

**Məclis üzvünün sözlərinə görə, komitə tərəfindən Mərkəzi Bankın rəhbərinə və ölkə başçısına ünvanlanan təkliflərə baxılır, bunun əsasında bir çox qərarlar, fərmanlar verilib:** "Bizi narahat edən daha bir məsələ gömrük sistemində islahatlar, idxal-ixrac əməliyyatlarının liberallaşması idi. Bank sistemində də islahatlara ehtiyac var. Bu proseslər paralel getməlidir ki, biz nəyəsə nail ola biləkk".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016

# Pənah Hüseyn Qüdrət Həsənquliyevə cavab verdi: "Nədən xoflanıb?"

## Sabiq baş nazir: "İqtidar və müxalifət arasındakı gərginliyi saxlamaq onun bağlı olduğu hakimiyyət çevrəsinin mövqeyi ola bilər"



**AXP sədri Pənah Hüseyn müsavat.com-a məktub göndərib və onun dərcini istəyib. Biz bu yazını dərc etməklə yanaşı, bildiririk ki, BXCP sədri Q. Həsənquliyevin də məhz bu yazıya cavab haqqı yaranır. Çünki biz onun bundan əvvəlki müsahibəsini dərc etməmişdik.**

***

Tanışlardan biri zəng edərək, Qüdrət Həsənquliyev sənin, İsa bəyin və Əli Kərimli barədə açıqlamalar verib, nə əcəb cavab vermirsiniz soruşdu. "İndi Qüdrət Həsənquliyevə vaxt ayırmaq zamanıdırmı", - dedim. Tanışım materialın getdiyi saytı və tarixi söyləyib, "hər halda baxsanız yaxşı olar, Elçibəyi də məsələyə qatıb", - deyə əlavə etdi. Elçibəy adına görə axtarıb baxdım...

"Prezident Elçibəyə deməden Pənah Hüseyn, İsa Qəmbər və Əli Kərimli daxili işlər nazirinin otağından Heydər Əliyevə zəng edərək onu Bakıya dəvət etdilər. Elçibəy yana-yana deyirdi ki, Heydər Əliyev götürüb ona zəng edəndə ki, bəs Pənah Hüseyn mənə zəng edib Bakıya dəvət edir, mən də soruşuram ki, bu dəvətdən prezidentin xəbəri varmı, o telefonda bir anlıq duruxur və sonra mənə deyir ki, siz razılıq versəniz, biz Elçibəyə deyərik. Heydər Əliyev Pənaha deyir ki, de görüm bu yalnız sənin fikrindir, yoxsa yanında kimsə var orda? Pənah Hüseyn də qayıdır ki, yox, tək deyiləm, İsa Qəmbərlə Əli Kərimli də yanımdadır. Elçibəy deyirdi ki, bunları eşidəndən sonra qulaqlarım necə uğuldadısa sonradan telefonda Heydər Əliyevin nə danışdığını eşitmədim. Çünki artıq bu cavabdan sonra sanki günün günorta çağı məni ildırım vurmuşdu və mən artıq heç nə eşitmirdim. Elçibəy deyir ki, mən ondan sonra telefonu götürüb Pənaha dedim ki, təcili istefa ver. Elçibəy deyirdi Pənaha dedim ki, İsaya de, o da istefa versin. İsa Qəmbər imtina edəndən sonra Elçibəy deyir ona da götürüb telefonla dedim ki, istefa ver. Əli Kərimliyə gəldikdə isə bilirsiniz ki, hətta AXC-nin şöbə müdirlərinə desə də, Elçibəy Əli Kərimliyə Kələkiyə getməsiylə bağlı heç nə deməmişdi. Yəni onun bir satqın olduğuna tam əmin olduğundan ona Bakını tərk etməsiylə bağlı nəsə deyilməsini məsləhət bilməmişdi. Necə ki, Heydər Əliyev bu barədə danışanda Elçibəyin qulaqları batmışdı, eləcə də Elçibəy bütün bunları Kələkidə mənə danışanda mənim qulaqlarım batdı ki, o dövrdə prezidentə qarşı nə qədər ləyaqətsiz bir davranış nümayiş etdirilib..."

Bu boyda quyruqlu yalan olarmı? Adam Elçibəyə hörmət etmir, barı özünə hörmət etsin.

Ümumiyyətlə kiminsə, nəyinsə haqqında iddianı bu gün həyatda olmayan şəxsə istinadən - əgər o şəxs sağ olarkən bunu deməmisənsə, yazmamısansa, dərc etməmisənsə, - irəli sürmək, təsdiqedici başqa sübut, dəlillər olsa belə, etik deyil. Belə iddiaları təsdiq edəcək heç bir dəlilin, sübutun yoxdursa, üstəlik həmin iddialar yalan, uydurma, iftira, şər, böhtandırsa, həyatda olmayan şəxsin adını - xüsusən bu ad Elçibəy kimi milyonlar üçün müqəddəs bir addırsa, - öz yalanlarına bulaşdırmaq, alət etmək isə tam mənəviyyatsızlıq və əxlaqsızlıqdır.

Deyək ki, Qüdrət Həsənquliyev Elçibəyin sağlığında Əli Kərimlinin yanında olub. İsa Qəmbərə və mənə qarşı ki, özünün də dəfələrlə dediyi kimi mənfi münasibətini heç gizlətməyib və tənqidlərə tuş edib. Məsələn, mən 1997-ci ildən sonra həbsdən çıxdıqdan sonra "Elçibəy Pənahı AXCP-yə gətirir", - söz- söhbətlərindən vahiməyə düşərək, mənə qarşı aparılan kampaniyanın dəstəbaşılarından olub. Nə əcəb bu gün yuxarıda dediklərini o vaxt mənə münasibətdə haqlı olmalarının sübutu kimi ortaya qoymurdu?!.

Yalançının yaddaşı gödək olar. Bu adam yaddan çıxarıb ki, Baş Nazir vəzifəsindən istefamı 07 iyun 1992-ci ildə prezident yanında müşavirədə bəyan və bu barədə yazılı ərizəmi təqdim etməyimə baxmayaraq Elçibəy mənim istefamı qəbul etməmişdi və mənim Baş Nazir postundan azad olunmağım barədə fərman 29 iyun 1993-cü il tarixdə Heydər Əliyev tərəfindən imzalanıb.

Elçibəyin 1993-cü il iyun hadisələrindən sonra İsa Qəmbərə, Pənah Hüseynə və Əli Kərimliyə münasibəti onun öz sağlığında mətbuatda dərc edilmiş çoxsaylı müsahibələrində, çap edilmiş kitablarında açıq aydın ifadə olunmuşdur.

**Sitat:** "...Dəfələrlə bildirmişəm ki, mən olmadıqda məni lider kimi tanıyanlar İsa Qəmbəri qəbul etməlidirlər. Bu həmçinin İsa bəyin siyasi potensialı, təcrübəsi, qabiliyyəti və siyasi nüfuzu ilə də bağlıdır. O, yetişmiş siyasi lider kimi həm də mənim ən çox etibar etdiyim məsləkdaşım və dostumdur." ( "Azadlıq" qəzeti 9 may 1997-ci il nömrəsi)

Əgər Qüdrət Həsənquliyevin yuxarıdakı iftirasına hətta dolayısı, uzaqdan-uzağa oxşar bir hadisə, rəy olsaydı Elçibəy bu fikri söylərdimi?

Çox gənc olmasına baxmayaraq Elçibəy tərəfindən dövlət katibi vəzifəsinə gətirilən Əli Kərimli 1993-cü il iyun hadisələrindən sonra da Elçibəy vəfat edənə qədər, onun rəhbərlik etdiyi partiyada özündən sonra əsas post tuturdu və bununla Elçibəyin ona yüksək siyasi etimadı ifadə olunurdu.

Elçibəyin Pənah Hüseynə münasibətinə gəldikdə isə, bu münasibət onun barəsində ictimai rəydə ən mənfi rəyin mövcud olduğu 1993-cü ilin sonlarından dəfələrlə "Pənah Hüseyn nə edibsə mənim tapşırığımla edib", - bəyanatını verərək onu qorumasında ifadə edildi. Pənah Hüseyn Elçibəyin ən son günlərinə qədər onun ən yaxın ətrafında yer alırdı, Elçibəyin siyasi planlarının işlənib hazırlanmasında və icra edilməsində mühüm rol oynayırdı.

Bunlar hamıya məlum olan açıq-aşkar həqiqətlərdir. Qüdrət Həsənquliyev kim idi və Qüdrət Həsənquliyev Elçibəyin onun haqqında verdiyi hansı dəyəri ortaya qoya bilər ki, Elçibəy özünün ən yaxın əqidədaşları və dostları kimi qiymət verdiyi insanlar barədə onunla yuxarıda dediyi məzmunda "dəhşətli sirri" bölüşmüş olaydı?

Heydər Əliyevin 1993-cü ildə AXC hakimiyyəti rəhbərliyi tərəfindən Bakıya dəvət olunması məsələsi Elçibəyin həyatda olduğu dönəmdə mənim tərəfimdən o dövrə aid yazılarımda faktiki tərəfləri və siyasi mahiyyət baxımından hərtərəfli təsvir və təhlil edilmiş və dərc olunub yayılmışdır. Həmin materiallarda mənim məsələnin faktiki halları barədə dediklərim ən kiçik detalı üzrə belə Elçibəy özü və həmin dövrdə AXC hakimiyyəti rəhbərliyinə daxil və hadisələrə aidiyyatı olan şəxslərin heç biri tərəfindən təkzib edilməmişdir. Qüdrət Həsənquliyevin dediklərinə nəzərən isə onu göstərməklə kifayətlənirəm onun bu nağılı söyləməyə başlamamışdan xeyli əvvəllər, 1996-cı ildə mətbuatda dərc olunmuş yazımda və sonrakı yazı və müsahibələrimdə dəfələrlə vurğulamışam ki, 1993-cü ilin iyun hadisələri zamanı mənim Heydər Əliyevlə telefon danışığım cəmi bir dəfə, o da 9 iyunda, Ali Sovetin binasından olub.

Mən materiala diqqətlə baxdım. Jurnalistin Elman Rüstəmov barədə sualı da buna təhrik etmir. Əslində Qüdrət Həsənquliyevin Elman Rüstəmov barədə Milli Məclisdə səsləndirdiyi fikirlər mətbuatda digər şəxslər, məsələn, Fəzail Ağamalı və Cavanşir Abdullayev tərəfindən səsləndirilmişdi. Jurnalistin sualı da həmin fikirlərə aiddir. Mənim Qüdrət Həsənquliyevin Milli Məclisdə Elman Rüstəmov barədə dediyi fikrimin də mahiyyəti E.Rüstəmov AXC-nin, uğurlu və ya uğursuz kadrı olması ilə bağlı deyildi. Mənim dediyim ondan ibarət idi ki, 1995-ci ildə bu iqtidar tərəfindən Mərkəzi Bankın rəhbəri təyin edilmiş və bu günə qədər həmin vəzifədə qalan bu şəxsi tənqid edərkən AXC hakimiyyətinin xatırlanması nə dərəcədə məntiqidir və belə rəy yaratmağa xidmət etmirmi manatın 2015-ci ildəki devalvasiyasına görə də sən demə 1992-ci ildə getmiş AXC hakimiyyəti məsuliyyət daşıyır. İndi 2015- ci ildə dövlətin üzləşdiyi böhrana görə 25 ildir bu iqtidarın Baş Bankiri olan Elman Rüstəmovu vurarkən belə özünü onun AXC kadrı olması deyimi ilə sığortalayan və bu günün problemlərini AXC hakimiyyəti ilə bağlayan adam qorxaqdır, yoxsa "vaxtı ilə ümidverən mütəxəssis kimi vəzifəyə gətirilən Elman Rüstəmov zay olubsa indiki iqtidarın korrupsiya qazanında zay olub", - deyən Pənah Hüseyn.

Əsil maraqlı olan Qüdrət Həsənquliyevin yuxarıdakı uydurmaların əks olunduğu müsahibədə durub dururkən nə üçün mənə, xüsusilə İsa Qəmbərə və Əli Kərimliyə hər halda ilk nəzərdə tamamilə yersiz görünən hücumudur.

Qüdrət Həsənquliyev dövlətin üzləşdiyi problemlərdən, böhrandan daha çox tənqid etdiyi həmin şəxslərin təmsil etdikləri qüvvələrin hakimiyyətə gələcəyindən və ya da, ola bilsin, iqtidarın böhrandan çıxış yollarından biri kimi Azərbaycanın siyasi müxalifəti ilə anlaşmaya gedə biləcəyi perspektivindən xoflanıb? Yoxsa müsahibədə jurnalistin verdiyi - "Elman Rüstəmovun peşəkar bir bankir olmadığı ortada. Amma AXC iqtidarının uğursuz kadrı adlandırdığınız Elman Rüstəmov həm də Şahmat Federasiyasının prezidentidir və bir peşəkar şahmatçı olduğunu məmləkəti mat etməklə ortaya qoymuş oldu..." sualına Qüdrət Həsənquliyevin verdiyi "E. İndi də bunlar yenidən hakimiyyət iddiasına düşüblər. O dövrdə rəhmətlik Elçibəy özünün şəxsi nüfuzundan istifadə edərək hakimiyyəti bir il saxlaya bildi, amma indikilər hakimiyyət quşu çiyinlərinə qonsa belə heç bir ay da hakimiyyətdə qala bilməzlər və ölkə param - parça olar", cavab nə anlamına gəlir?

**Onun fikirlərində ifadə olunan iqtidar və müxalifət arasındakı gərginliyi saxlamaq və dərinləşdirmək xəttinin öz ruh halının ifadəsi, BAXCP-nin, yoxsa bağlı olduğu hakimiyyət çevrələrinin mövqeyi olduğunun aydınlaşmasını isə zamanın öhdəsinə buraxaq.**

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016



# Dövlət Plan Komitəsi

Zamin HACI
zaminhaci@gmail.com

**Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv olunması çox yaxşı islahat idi. Prinsipcə, hazırda satın almağa bir zad qalmamışdır. Hardadır o neft pulları? Saxta tenderlər, kağız üzərində keçirilən müsabiqələr... Heyf deyildi, yazırdın ki, guya tender olub, Üstüaçıq-Dəymədağıldı-Qazlıbulaq yolunun 14,6 kilometrlik hissəsinin çəkilişi üzrə "Fırtışqulu ənd Ko" şirkəti qalib gəlmişdir, hər kilometr isə 1 milyard dollara başa gələcəkdir. Basıb yeyirdin, üstündən damla-damla toplanan şirələrdən içirdin.**

Özü də dərd böyükdür, indi satın almağa normal adam da qalmamışdır, nəinki yol-mol olsun. Hamı ağzını sərçə balası kimi açıb dən istəyir. O üzdən, ortaya anomal nəticələr çıxır. Misal üçün, vaxtilə Surət kimi bir yoluqla (onun yoluq olmasını dahi rəhbər cəmi 6 ayda isbat elədi və yolub qazamata basdı) bacarmayıb əsir düşən çekist idarəsinin böyüyü indi Füzulidə acından küçəyə çıxanları Ermənistanla bağlayır.

Yaxud görürsən sol əliylə sağ əlini qarışdıran birisi etirazlarda kapitalizmin böhran əlamətlərini tapır. Vay-vay... Sən demə, bizdəki hərəkətlər ümumdünya sosialist inqilabının bir parçası imiş, qubalı Məşədi Bala isə ÜİLKGİ yerli şöbəsinin üzvüdür, hər gün Qəçrəş yolundakı kababxanada "İskra" qəzetinin gizli nüsxələrini qayırırmış. İmperializm çürüməkdə olan kapitalizmdir, deputat Aqil Abbasın üsyana qalxan qulları əkməyə çağırdığı soğanlar da çoxdan çürümüşdür. Qalx, ey lənətlə damğalanan aclar və qullar dünyası! Nə təhər deyərlər, bir xalq tarixi başa düşməsə onu təzədən yaşamağa məcburdur. Vallah. Şair bu münasibətlə yaxşı demişdir: "Özünə qayıdır, özünə hər şey".

Bu baxımdan, İqtisadiyyat və Sənaye Nazirliyinin adının dəyişdirilib İqtisadiyyat Nazirliyi qoyulması növbəti inqilabi addımdır. Yaşlı adamların yadına gələr, 90-cı illərdə bu nazirliyin adı elə İqtisadiyyat Nazirliyi idi. Sonra İqtisadi İnkişaf Nazirliyi oldu. Sonra Heydər Babayev ümumi kassadan bəzi kisələri dala atanda nazirliyin adını da dəyişib İqtisadiyyat və Sənaye Nazirliyi qoydular. İndi isə sənaye yoxa çıxıbdır. Devalvasiyadan sonra Azərbaycanın aftafa da istehsal etmədiyi ortadadır. Ancaq hər halda iqtisadiyyat qalır - bəzi dükanlara yumurta və toyuq budu göndərilir. Allah qoymasa, toyuqlar da dünya inqilabına qoşulub indiki mənhus ştreykbrexerlikdən əl çəkəndə məcburuq nazirliyə təzə ad tapaq. Mən təklif edərdim Dövlət Plan Komitəsi olsun. Ən yaxşı addır, dövlətçiliyiyə də uyğundur. Sovet vaxtı bu komitə işləyəndə dövlət hər şeyi planlaşdırırdı, narazılıq da olmurdu. Hamı bilirdi ki, dükanda paltar yoxdur, yağı isə Ermənistandan gətirmək olar. İndi bircə ay millət yağsız qalsa, elan olunsa ki, yağ İrəvan bazarında var, hücum edib torpaqlarımızı azad edərik. Gör nə qədər uzaqgörən plandır. Təklif edirəm, bu plana görə mənə "Şöhrət" ordeni verilsin. "İgidliyə görə 3-cü dərəcəli vətənə xidmətin tərəqqisinin istiqlalı" medalına da etiraz etmirəm.

Həmçinin, Dövlət Bayrağı Meydanı idarəsinin ləğv edilib Bulvar Nazirliyinə birləşdirilməsi çox yaxşı addımdır. Onsuz külək əsəndə o bayraq idarəsi işsiz qalırdı, Bakıda isə ildə 360 gün külək əsir. Həmçinin, idarənin müdirləri satqın çıxırdılar.

İdarəçiliyin bu cür səmərəli qurulması başqa nazirlik və komitələr üzərində davam etdiriləcəkdir - mən bunu intuisiya ilə duyuram. Neftin qiyməti düşməzdən qabaq mənim sümüklərim sızıldayır. Deyilənə görə, bunun adı neft revmatizmidir.

Uzun sözün qısası, yaxın vaxtlarda Müdafiə Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi birləşdiriləcək, Kənd Təsərrüfatını Müdafiə Nazirliyi olacaq. Soğan əkənləri qorumaq lazımdır. Mədəniyyət Nazirliyi isə Xarici İşlər Nazirliyinə birləşməlidir, çünki ikincinin bəzi işçiləri çox ağını çıxarıblar, hətta Latviyada səfir işləyən adamımızın xanımı yerli yol polisindən "prava" almaq üçün rüşvət ödəyibdir, Azərbaycan həqiqətlərini dünyada tanıdıbdır. Bu nazirlikdə ciddi mədəniyyət çatışmazlığı sindromu vardır.

**Başqa təkliflərim də var idi, heyf yer qalmadı.**

---




# Ermənistanda Türkiyə xofu güclənir - düşmənin qəfil təlaşlanmasının pərdəarxası

## İşğalçı ölkə həm Kremlin himayəsini itirməkdən qorxur, həm də ayaq altda qalmaqdan; sərhədin bu tayında Rusiya, o tayında isə Türkiyənin hərbi təlimlərə başlaması mənfur qonşumuzun yuxusunu qaçırıb; təcavüzkar "iki od" arasında...

**Rusiya faktiki, işğal etdiyi Ermənistanda hərbi-hava qüvvələrini və Gümrüdəki 102 saylı bazasını durmadan gücləndirir. Xəbər verildiyi kimi, Moskva forpost ölkədəki (Erebuni) aviabazaya son olaraq müasir hərbi vertolyotlar göndərib. Bu ilin ikinci yarısında isə Ermənistana yeni partiya döyüş təyyarələri və müasir sistemlərin yola salınması planlaşdırılır.**

Sonuncular arasında "İsgəndər M" tipli raket komplekslərinin olacağı da deyilir. Bu sistemlərin əsas özəlliyi odur ki, onlar nüvə başlıqlı ballistik raketlər də daşıya bilər. Amerikalı hərbi ekspertlər o halda bölgədə geosiyasi və hərbi balansın xeyli dərəcədə Rusiyanın xeyrinə dəyişə biləcəyi barədə xəbərdarlıq ediblər.

İrəvanda isə artıq çoxdan Rusiyanın bu və digər addımlarının müttəfiq Ermənistanın təhlükəsizliyini gücləndirməkdən daha çox, Kremlin öz maraqlarını qorumaq niyyəti güddüyünü güman edirlər. Xüsusən də işğalçı ölkənin sürətlə hərbiləşdirilməsinin Moskva-Ankara münasibətlərinin soyuduğu dönəmə düşməsi erməni siyasi və ekspert dairələrində güclü əndişə yaradıb. Qonşu ölkənin mediasında da eyni təlaş müşahidə edilməkdədir.

Yerli şərhçilər bununla ölkənin olan-qalan suverenliyinin itiriləcəyi qənaətindədirlər. Belə hesab edilir ki, Rusiya Türkiyəyə qarşı birbaşa deyil, Ermənistan kimi üçüncü ölkə vasitəsilə dolayı müharibələrə, revanş xarakterli hərəkətlərə rəvac verə bilər. Bəzi erməni ekspertlər isə bu üzdən təklif edirlər ki, Türkiyəyə qarşı Ermənistan ərazisi vasitəsilə hər hansı hərbi xarakterli akt həyata keçirilərsə, o zaman buna Ermənistan rəhbərliyinin, yaxud parlamentin razılığı alınmalıdır. Hələ ki, Serj Sərkisyan hökuməti və ya parlament bu təkliflərə reaksiya verməyib.

Ancaq Krımı Ukraynadan zorla qoparan Rusiya çətin ki, buna razı olsun. Hər halda, ağa vassaldan icazə almır. Belə hallara nə praktikada, nə də tarixdə rast gəlinib. Moskva uzaqbaşı öz hərəkətləri barədə İrəvanı formal məlumatlandıra bilər.

***

Bu arada bəlli olub ki, Rusiya Ermənistan-Türkiyə sərhədlərinin cəmi 10-15 km-də hərbi hava qüvvələrinin manevrlərinə başlayıb. Yerli siyasi təhlilçilərdən biri bunu Türkiyəni təxribata çəkmək cəhdi kimi qiymətləndirib və Ermənistanın köklü maraqları baxımından bunun yolverilməz olmasına diqqət yönəldib.

"Əgər bu, Ermənistanın təhlükəsizliyi ilə bağlıdırsa, onda qoy rus təyyarələri Ermənistan-Türkiyə yox, Azərbaycan-Ermənistan sərhədi üzərində uçuşlar həyata keçirsin. Hər halda təxribatın "uğurlu" alınacağı təqdirdə Ermənistan Rusiya ilə bərabər məsuliyyət daşıyacaq", - deyə erməni analitik qeyd edib.

Bu, doğrudan da belədir: Türkiyə təxribata çəkilsə, ona Ermənistandan cavab verilsə, Ankaranın cavabı da müstəsna olaraq təxribat yuvasına - Ermənistana yönələcək. İşğalçını ən çox qorxudan da budur - böyük güclərin ayağı altında qalmaq, poliqona çevrilmək. Bu xüsusda Ermənistanda yəqin onun da fərqindədirlər ki, iqtisadiyyatı "can üstə olan" Rusiya bir qayda olaraq, böhranlı vəziyyətlərdən öz perimetri boyu müharibələrə, təxribatlara əl atmaqla çıxmağa çalışır.

Bundan başqa, Türkiyə NATO-nun üzvü olduğundan ona qarşı təxribat variantında İrəvan avtomatik şəkildə Qərbin də neqativ reaksiyası və cavabı ilə üzləşə bilər. Onsuz da işğalçı Ermənistan daima digər işğalçının -Rusiyanın yanında yer aldığı, öz ərazisində onun hərbi bazalarını yerləşdirdiyi, hətta Ukrayna məsələsində Kremli dəstəklədiyi və Krımın işğalını təqdir elədiyi, işğalçılıq siyasəti ilə Güney Qafqazın inkişafına böyük əngəl yaratdığı üçün Avropa və ABŞ-ən yanında xüsusi rəğbət yiyəsi deyil.

Bu yandan da, Kremlin avantürist planlarına yardımçı olmaq onun Qarabağ məsələsində maraqlarına da zərbə vurardı. O da qeyd edilir ki, Ermənistan Türkiyə ilə bəlli səbəblərdən nə qədər soyuq münasibətdə olsa da, Rusiyanın maraqları naminə bu soyuqluğun hərbi xarakter almasının girovuna da çevrilmək istəmir.

***

Söz yox ki, Türkiyə Rusiyanın həmsərhəd Ermənistandakı manevrlərini və hərbi kontingentini genişləndirmək planlarını diqqətlə izləyir və öz hərbi strategiyasına müvafiq düzəlişlər edir. Bunun təzahürüdür ki, qardaş ölkə Ermənistan sərhədinin 50 km-də hərbi təlimlərə başlamağı qərar verib. Onu Rusiya təlimlərinə preventiv cavab tədbiri, gücə güclə cavab kimi də qiymətləndirmək olar.

Erməni tərəfini ən çox təlaşlandıran da sərhədin bu tayında da, o tayında da keçirilən təlimlərdir. Ancaq necə deyərlər, "özü yıxılan ağlamaz". Düşmən ölkə anlamalıdır ki, onun Azərbaycana qarşı Kremlin dəstəyi ilə həyata keçirdiyi təcavüzkarlıq nəticəsində öz təhlükəsizliyini təmin eləmək getdikcə daha bahalı, eyni zamanda təhlükəli bir problemə çevrilib. Söhbət həm də regionun təhlükəsizliyindən gedir.

❑ **Analitik xidmət**



# İranın Qərblə böyük barışı - dünya yeni sabaha oyanır

**Nəhayət ki, İran və "altılıq" (BMT TŞ-nin 5 daimi üzvü və Almaniya) arasında nüvə məsələsi ilə bağlı yekun razılaşma qüvvəyə minir. Avstriyanın paytaxtında şənbə günü bir araya gələn iştirakçı dövlətlərin xarici işlər nazirləri yekun razılaşma üzərində anlaşmaya nail olublar.**

## Tehran dünya bazarına qayıdır, 100 milyard nağd pul, böyük Qərb sərmayəsi cəlb etməyə hazırlaşan İslam Respublikası regional siyasətdə də aktivlliyini artırır

### Hər iki tərəf razıdır

BBC-nin məlumatına görə, İran XİN rəhbəri Məhəmməd Cavad Zərif sanksiyaların şənbə günündən etibarən ləğv olunacağını bildirmişdi. Gözlənildiyi kimi, Beynəlxalq Atom Enerjisi Agentliyi İranın nüvə proqramını minimallaşdırması ilə bağlı hesabatını elan edib. Gələn bilgilərə görə, Tehran artıq nüvə fəaliyyətini beynəlxalq müşahidə altında razılaşmaya uyğun həcmdə azaldıb. Buna qarşılıq olaraq BMT, AB və ABŞ İrana qarşı sanksiyaları dondurub. Bura İranın 100 milyard dollar civarında dondurulmuş vəsaitinin geri ödənməsi və ən mühümü, İranın yenidən dünya enerji bazarına qayıtması kimi mühüm detallar daxildir.

Artıq ABŞ hökuməti də məsələ ilə bağlı müsbət mesaj verib. Vaşinqton bəyan edib ki, hər iki tərəf nüvə anlaşmasının qüvvəyə minməsi üçün doğru yöndə addımlar atıb.

### Qarşılıqlı məhbus "jesti"

Vyanada danışıqların getdiyi bir zamanda İran hökuməti "Washington Post" qəzetinin iranlı müxbiri Jason Rezayian da daxil olmaqla 4 ABŞ vətəndaşını azadlığa buraxıb. Buna qarşılıq olaraq ABŞ hökuməti də həbsdə olan 7 İran vətəndaşını azad edib.

### Embarqodan sonrakı İran

İrana qarşı embarqoların ləğv olunması ilə bu ölkənin 20 ildən artıqdır məhdudiyyət altında olan iqtisadiyyatı geniş bir nəfəslik əldə edəcək. İlk növbədə İran dünya banklarında dondurulmuş pullarını geri alacaq. Fərqli rəqəmlər deyilsə də, hökumət rəsmilərinin məlumatına görə, embarqoların ləğvindən sonra İranın dünyanın müxtəlif banklarında qalan 100 milyard dollardan artıq nağd pulu ölkəyə qaytarılacaq.



Yeri gəlmişkən, ötən il İran Mərkəzi Bankı embarqo səbəbilə Cənubi Afrika Respublikasında dondurulmuş 13 ton qızılı ölkəyə gətirdiyini elan edib. Embraqoların ləğvi ilə İran uzun illərdir həbsdə olan pullarını, eləcə də qiymətli metalları, əmlakını geri ala biləcək. Ancaq təbii ki, İrana qarşı embarqoların ləğvinin ən böyük təsiri neft və qaz sektorunda olacaq.

İran təsdiqlənmiş qaz ehtiyatlarına görə, dünyanın ikinci, neft ehtiyatlarına görə isə 4-cü yerdə gələn ölkəsidir. Ancaq məlum səbəblərdən uzun illər İran nefti və qazı "qara bazar"da, ucuz qiymətə satılıb. İndi isə embarqo qalxır və İran birbaşa Avropa Birliyinin enerji bazarına daxil olmağa hazırlaşır. Doğrudur, hazırkı qiymətlərlə bu, elə də böyük qazanc vəd etmir, ancaq istənilən halda böyük ehtiyata sahib Tehranın bazara çıxması və sərbəst ticarət imkanları qazanması ölkəyə böyük miqdarda pul gətirəcək.

Ancaq dünyada daha çox neft-qaz ölkəsi kimi tanınan, ixracatında əsas bu məhsullar olan İran uzun illər embarqo dönəmində sənayesini inkişaf etdirib. Dünyada hər il ən çox ali təhsilli mühəndis İranda məzun olur. Ölkənin nanotexnologiyadan tutmuş, metallurgiyaya qədər, elektronika, maşınqayırma kimi sahələrdə böyük inkişaf edən sənayesi var. Bu mənada embarqolardan xilas olan İranın dünya ticarət dövriyyəsində önəmli paya sahib olması gözlənilir.

### Tehranın "siyasi açılımı"

Maraqlıdır ki, şənbə günü Türkiyənin hakimiyyətə yaxın mediası İran xarici işlər nazirinin müavininin yaxın günlərdə Ankaraya səfər edəcəyi haqda məlumat yayıb. Bildirilir ki, Əmi Hüseyn Abdullahiyan Ankarada bir sıra rəsmilərlə görüşəcək. Eyni zamanda xarici işlər naziri Cavad Zərifin səfərinin detallarını müzakirə edəcək. Bu səfərin iki ölkə münasibətlərinin yaxşılaşdırması cəhdi olaraq təqdim ediblər.

Məlum olduğu kimi, son bir neçə ildə iki ölkə münasibətlərində ciddi soyuqluq müşahidə olunub. Qərblə anlaşan İranın Türkiyə ilə münasibətləri qaydaya salması regionda artan gərginliyin yumşalması cəhdi kimi də yozula bilər. Son zamanlar İrana qarşı ciddi bir ərəb bloku yaranıb və Tehranı təkləmək cəhdləri müşahidə olunur. Görünür ki, İranın diplomatik hücumu həm də bu bloku dağıtmağa yönəlik olacaq.

❑ Kənan RÖVŞƏNOĞLU

# İrana sanksiyaların ləğvinin Azərbaycana iki təsiri - biri yaxşı, biri pis...

## Elxan Şahinoğlu: "İranın dünya neft bazarına neft çıxarması neftin bir barelinin hətta 10 dollara düşməsinə gətirib çıxara bilər"

**ABŞ İran neftinin üçüncü ölkələrlə alış-satışına tətbiq etdiyi sanksiyaları ləğv edib. Sanksiyalar İran neftini əldə edən və ya İran iqtisadiyyatının neft sahəsinin tələbatları üçün müvafiq məhsullar satan üçüncü dövlətlərin nümayəndələrinin üzərindən götürüləcək.**




Elxan Şahinoğlu

Beynəlxalq fəaliyyətlə məşğul olan istənilən şirkətə qarşı birtərəfli qaydada tətbiq edilən sanksiyalar ABŞ-a İran iqtisadiyyatını ciddi şəkildə məhdudlaşdırmağa imkan verirdi.

Sanksiyaları ləğv etməklə ABŞ İranın nüvə proqramı ilə beynəlxalq saziş üzrə üzərinə götürdüyü öhdəlikləri icra edir.

İrana qarşı sanksiyanın ləğvinin regiona və Azərbaycana da təsir edəcəyi şübhəsizdir. Bu barədə danışan **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirdi ki, ABŞ bir güllə ilə iki "dovşan" vurdu. Birincisi, artıq təminat alındı ki, İran nüvə silahı əldə etməyəcək, sülh məqsədləri ilə istifadə edəcək. Bu, Amerikanın birinci qazancıdır. ABŞ-ın ikinci qazancı odur ki, İran bazara daha çox neft çıxaracaq və neftin qiyməti bir az da düşəcək. Bu da ABŞ-ın planlarına uyğundur: "Amerika Rusiya Krımı ilhaq edəndən sonra Rusiyanı çökdürməyin yollarını axtardı və ağıla gələn ən asan yol neftin qiymətinin ucuzlaşdırılması idi. Çünki Rusiya iqtisadiyyatı neft satışından asılıydı. Vaşinqton planını həyata keçirməyə başladı və uğur da qazandı. Əvvəlcə Səudiyyə Ərəbistanı ilə sövdələşmə oldu ki, neftin dünya bazarında qiyməti qalxmasın, sonra ABŞ özü 40 ilə yaxındır özünün konservləşdirilmiş neft yataqlarının istismarına başladı və sonda İrana qarşı sanksiyaları götürməklə Rusiyaya daha bir sarsıdıcı zərbə vurmuş oldu. İranı neftinin dünya bazarına çıxması Rusiya iqtisadiyyatını tamamən bərbad hala gətirib çıxaracaq. Bunu rusiyalı rəsmilər də etiraf edirlər ki, artıq Rusiyada sosial gərginlik artır. Yeni ABŞ İrana sanksiyanı aradan qaldırmaqdan qazandı. Amerikanın daha bir qazancı var. İrana qarşı sanksiyalar tətbiq edilədə Tehran məcburən Moskva ilə ittifaqa gedirdi. Amma bundan sonra İranın daha çox Qərblə əməkdaşlığı həvəsi yarana bilər. Çünki yüksək texnologiyalar Rusiyada deyil, Qərbdədir. Qərbin neft şirkətləri İranda işləməyə başlaya bilər".

**İrana qarşı sanksiyanın ləğvinin bölgəyə və Azərbaycana təsirlərinə gəlincə, E.Şahinoğlu dedi ki, həm müsbət, həm də mənfi təsirləri olacaq**: "İran-Qərb münasibətləri gərgin olduqca, bu vəziyyət İran-Azərbaycan münasibətlərini də zaman-zaman gərginləşdirirdi, sanksiyaların ləğvinin müsbət tərəfi odur ki, bu durumu aradan qalxmış olacaq. Mənfi təsiri odur ki, İranın dünya bazarına neft çıxarması Rusiya iqtisadiyyatına zərbə vurduğu kimi Azərbaycan iqtisadiyyatına da təsir edəcək. Neftin qiymətinin daha da aşağı düşməsi Azərbaycanın gəlirlərinin azalmasına səbəb olacaq. İranın dünya neft bazarına neft çıxarması neftin bir barelinin hətta 10 dollara düşməsinə gətirib çıxara bilər. Belə vəziyyətin isə Azərbaycanın gəlirlərinə sarsıdıcı zərbə olması aydındır. Bir müddət biz bundan əziyyət çəksək də bəlkə də bu bizim xeyrimizədir ki, iqtisadiyyatı neftin üzərində qurmaq siyasətindən əl çəkilsin. Böhran bizə onu da öyrətməlidir ki, iqtisadiyyatın başqa sahələrini də inkişaf etdirmək zəruridir, neftdən asılılıq bizi uçuruma aparır. Azərbaycan neft asılılığından qurtulmalıdır ki, holland sindromundan da qurtulaq və məcburən iqtisadiyyatın digər sahələrini də inkişaf etdirib dünya bazarına başqa məhsullarını da çıxaraq".

❑ Etibar SEYİDAĞA

## Ruhani: "Bu, İran iqtisadiyyatı üçün dönüş nöqtəsidir..."

**Atom proqramı üzrə saziş və ölkəyə qarşı qoyulan qadağaların aradan qaldırılması İran tarixində "qızıl səhifə" açdı. Bunu İslam Respublikasının prezidenti Həsən Ruhani parlamentin iclasında çıxışı zamanı bildirib. Onun sözlərinə görə, bu hadisələr İran iqtisadiyyatı üçün dönüş nöqtəsidir.**



Həsən Ruhani

Ruhani tez bir zamanda ölkədə hərtərəfli iqtisadi islahatlar aparmağa çağırıb. O bildirib ki, ölkənin rifahı neft hasilatından mümkün qədər az asılı olmalıdır. Ruhani qeyd edib ki, neftin qiymətinin aşağı olması belə bir asılılığın aradan qaldırılması üçün ən yaxşı əsasdır.

**"Baxış bucağı"**

**Söhbətin təşəbbüskarı elə özü oldu. Ürəyini boşaltmaq, düşüncələrini ictimailəşdirmək üçün "Yeni Müsavat"a danışmaq istədi. Görüşdük, dedi ki, xalq şairi Zəlimxan Yaqubun vəfatı ona çox ağır təsir edib. Özünün səhhətində ciddi problemlər olsa da, şairin addım-addım ölümə yaxınlaşdığını bilsə də, yenə bu itki ilə barışa bilmir.**

# "Əgər kişiliyin çatırdısa, Zəlimxanın üzünə deyərdin"

## Kamandar Eyvazlı: "Zəlimxan yoxdursa, onun mənim kimi dostları var, qoymarıq ki, bir kəlmə də artıq-əskik sözlər deyilsin"



Lakin dedi ki, ona pis təsir edən təkcə şair dostunun ölümü deyil, həm də Zəlimxan Yaqubun dünyasını dəyişməsindən sonra onun haqqında sərt tənqidlərin səslənməsi, yazılmasıdır. **Yazıçılar Birliyinin üzvü, şair Kamandar Eyvazlı**nın "Baxış bucağı"nı təqdim edirik:

- Mənim sizə müraciət etməyimin əsas səbəbi Zəlimxan Yaqubun haqqında deyilən artıq-əskik, Zəlimxan şəxsiyyətinə yaraşmayan, söz-söhbətlərdir. Mən 10 ildən artıqdır Yazıçılar Birliyinin üzvüyəm, şair kimi prezident təqaüdü almışam. Yəni Zəlimxan qələminə, Zəlimxan şəxsiyyətinə çox böyük hörmətim var. Düzdür, yozula bilər ki, eloğlusudur, bu cür danışır. Ancaq nə dəxli var ki? Zəlimxan çox böyük hörmətə layiq şəxsiyyət və qüdrətli qələm sahibi olub. Zəlimxanın sağlığında onun qarşısına qaçıb əlindən ikiəlli tutan insanlar, Zəlimxandan nələrisə xahiş edən insanlar artıq Zəlimxan dünyasını cismən dəyişəndən sonra başlayıblar xoşagəlməz sözlər danışmağa. Deyirlər ki, Zəlimxan Yaqub saray şairi idi... Bunlar hamısı yaramaz söhbətlərdir. Əgər kişiliyin, qeyrətin çatırdı, bunu vaxtında Zəlimxanın üzünə deyərdin.

***- Kimlərdir onlar?***

- Ad çəkmək istəmirəm. Həmin adamların 2-3-ünü şəxsən tanıyıram. Hansı ki, onlar Zəlimxandan dəfələrlə nəsə xahiş ediblər. Hamıya məlumdur ki, Zəlimxan yetimlərin, kasıbların, işsizlərin sahibi olub, neçə-neçə insanlara kömək edib, qollarından tutub, çalışıb yaxşı yaşasınlar. Ələlxüsus qələm sahiblərinə. Həmişə kömək edib. Bu gün Zəlimxan olmayan dövrdə bəziləri artıq-əskik danışır. Amma unutmasınlar ki, Zəlimxanın mənim kimi minlərlə oxucusu və dostu var. Nə qədər yazsalar, biz onların cavabını verəcəyik. Zəlimxanın dəfnində, məzarı başında mən o izdihamı, sadə insanları ki, gördüm... Mən orda Zəlimxana görə yox, həmin o insanlara görə ağladım. Bəlkə də ora geniş olsaydı, daha çox insan toplaşacaqdı. Mən ilk dəfə orda Zəlimxanın kişi dostlarını, aşıqları, sənətkarları dizlərinə döyüb ağlayan gördüm. Hamı bir-birinə "sazımızın başı sağ olsun" deyirdi. Bu idi məhəbbət, bu idi hörmət. Bu gün niyə Zəlimxanın yaradıcılığını, hansı ağsaqqallar haqqında yazdığını təhlil etmirlər? Onu əsas tuturlar ki, "Bir ömrün dastanı", "Əbədiyyət dastanı" əsərlərini yazıb. Zəlimxanın bir şəxsiyyət kimi, ağsaqqal kimi Heydər Əliyevə hörməti, diqqəti olub. Heydər Əliyev Atatürkdən sonra türk dünyasının ikinci ağsaqqalıdır. Bu, onun şəxsi işidir. Götürsünlər Zəlimxanın ədəbi dilini təhlil eləsinlər, görək o, bir şair kimi bu əsərdə hansı nöqsana yol verib, hansı axsamaları var? Tapa bilməzlər bunları.

***- Kamandar bəy, bəlkə də Zəlimxan Yaqub siyasətdə olmasaydı heç bu qədər fərqli fikirlər də ortaya çıxmazdı, hədəfə gəlməzdi və nəticədə poeziyası arxa plana keçməzdi. Razılaşırsınızmı?***

- Bu fikirlərdə də əsas yoxdur. Nəyə görə? Zəlimxan siyasətdə oldu, insanlara kömək durdu, yardımçı oldu. Zəlimxan deputat olanda istənilən zaman istənilən yerdə görüşmək, sözünü demək mümkün idi. Özüm şahidiyəm, bir gün evindəydim, ona zəng gəldi, ucarlı bir dedi ki, sizə dərdimi demək istəyirəm. Zəlimxan hətta maşın göndərdi, onu evinə gətirtdi. Məlum oldu ki, qadın Əfv Komissiyasının üzvü kimi ondan xahiş etməyə gəlib. Belə olan təqdirdə Zəlimxanın siyasətdə olmasında pis nə var idi?

***- Belə bir deyim hər zaman aktual olub ki, dünyasını dəyişən adam haqqında ya yaxşılığına danış, ya da ümumiyyətlə, danışma. Əgər artıq Azərbaycan cəmiyyətində vəfat etmiş adamın əleyhinə danışılırsa, bəlkə bu, həm də aqressiyanın məntiqi nəticəsidir. Razılaşırsınızmı?***

- Bu, birbaşa millət kimi bizim nöqsanımızdır, bizim qanımızda, canımızdadır. Amma Zəlimxana yaraşmayan söhbətlərdir. Zəlimxan səhvləri barədə ondan soruşanda özü də deyib ki, insanam, yaşamışam, həyatda hansısa səhvlərim olub. Amma ümumilikdə götürəndə Zəlimxan gözəl bir şəxsiyyət, böyük və istedadlı şairdir. Əgər cəmiyyətdə aqressiya varsa, niyə bu, Zəlimxana qarşı yönəlməlidir? Peyğəmbərimiz haqqında yazdığı əsər var, niyə bu gün təhlil olunmur? Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Saraclı haqqında yazdığı əsərlər var, niyə bunlardan danışılmır? Zəlimxan Yaqub onu ilk dəfə, çox kəskin tənqid edən böyük alimimiz və tənqidçimiz Qulu Xəlilov haqqında həmişə müsbət fikirlər deyib. Zəlimxan bir dəfə də olsun Qulu müəllim haqqında mənfi rəy söyləmədi, hətta özünün inkişafında Qulu Xəlilov qələminin, tənqidinin çox böyük rol oynadığını dedi. Zəlimxanın böyüklüyü budur. Nəyə görə Zəlimxan Abbas Zamanov, Xudu Məmmədov, Camal Mustafayev kimi ağsaqqallar haqqında yazıb, bundan danışan yoxdur. Amma bir əsərini götürüb deyirlər ki, "saray şairidir". Saray şairi ona deyərlər ki, siyasətdən yazsın, mədhiyyələr yazsın, yaxud iqtidarda olan insanların işindən yazsın. Bu, şəxsiyyətdən yazıb. Bu, onun şəxsiyyətə hörmətidir. Mən sizə hörmət edirəmsə, şəxsiyyət kimi qiymətləndiririəmsə, nöqsanımdırmı? Bu da Zəlimxanın şəxsiyyətə hörmətiydi. İnanın ki, çox əsəbiyəm. Bunu sağlığında desəydilər, mən heç dillənməzdim. Deyərdilər, Zəlimxan ya cavablarını verərdi, ya da heç dillənməzdi. Zəlimxan Yaqub belə şeylərə diqqət yetirən insan deyildi. Bilirdi ki, bütövlükdə onun əməlləri müsbətdir, cəmiyyətin xeyrinə yönəlib. Ancaq bu gün Zəlimxanın həyatda olmayan vaxtında onun haqqında mənfi sözlər deyilir. Zəlimxan yoxdursa, onun mənim kimi dostları var, qoymarıq ki, bir kəlmə də artıq-əskik sözlər deyilsin.

***- Zəlimxan Yaqubla görüşlərinizdə şeirlərinizi oxuyurdunuzmu?***

- Təbii ki. Biz ancaq yaradıcılıqdan danışırdıq. Oxuyurdum yazılarımı, müsbət fikirlərini də deyirdi.

***- Son dəfə nə zaman görüşmüşdünüz?***

- Təqribən 1 ay əvvəl. Mənim tez-tez Borçalıya getməyimi bəyənərdi, xüsusi qeyd edərdi. Biz eyni kənddənik - Kəpənəkçidən, həm də qohumluğumuz var. Həmişə deyirdi ki, sənə hörmətim həm də ona görə çoxdur ki, elə-obaya bağlı adamsan, tez-tez gedirsən. Vəfatından bir gün əvvəl ev telefonuna zəng etmişdim. Çalışırdım ki, çox narahat etməyim. Çünki vəziyyətini bilirdim. Yoldaşı dəstəyi qaldırdı, dedi yaxşıdır, yatır. Mən onun haqqında bir poema yazmışam, təəsüf ki, sağlığında çap etdirə bilmədim - "Borçalıdan qopan haray" adında. Yoldaşından xahiş etdim ki, Zəlimxan oyananda deyin, poemanı bu günlərdə çap etdirəcəyəm. Səhər də eşitdim ki, dünyasını dəyişib.

***

Kamandar Eyvazlı sözarası bir xatirəsini də danışdı:

"5 il əvvəlin söhbətidir. Mən maşınla Az.TV-dən gəlirdim, gördüm ki, Zəlimxan bəy də üzüaşağı düşür. Saxladım maşını, düşüb dedim ki, əyləşin, sizi aparım. Dedi yox, istəyirəm bir az ayaqların açılsın. Təkidlərimdən sonra maşına əyləşdi. Bir az aşağı gəlmişdik, Teleteatrı keçəndə gördük ki, yolun qırağında bir kişi dayanıb, əlində də köynəksiz saz. Zəlimxan bəy dedi soruş gör kişi sazı satırmı? Neçəyə verir? Soruşdum, kişi dedi hə, satıram, 100 manata. Zəlimxan bəy 100 manat verdi, dedi sazı al, qoy maşına. Yəni o, hiss elədi ki, aşığın pula ehtiyacı olduğu üçün sazı satır. Zəlimxanın böyüklüyü, dahiliyi, nəhəngliyi bu idi. Zəlimxan kimlərə kömək etməyib?"

***- Kamandar bəy, Zəlimxan Yaqubdan sonra Aşıqlar Birliyinin sədrliyinə namizəd varmı? Özü kimisə məsləhət görmüşdümü?***

- Hələlik sədrlik boşdur. Yox, özü bu barədə heç nə deməmişdi. Zəlimxandan sonra gərək elə bir insan ora getsin ki, Zəlimxandan da bir addım irəlidə ola bilsin. Mən orda Zəlimxandan aşağı səviyyəli adam görmək istəmərəm. Konkret ad çəkmək mənimçün çətindir. Başqa aşıqların, şairlərin xətrinə dəymək istəmirəm, amma Zəlimxan başqa adam idi. O, sazı necə dərindən bilən bir insan idi? İlahi o, hardan almışdı bu gücü, qüvvəni?! Bu adam demək olar ki, yatmırdı.

***- Zəlimxan Yaqubun ustadı kim olmuşdu?***

- Zəlimxanın ustadı elə özü olub. Yaxşı yadıma saldınız. Zəlimxan köklü nəsildən olan, ağsaqqal, ağbirçək görmüş bir insandır. Hacımurad kişi deyilən dayısı olub ki, mən deyərdim Zəlimxan bəlkə də bütün mayasını ondan götürüb. Bu nəsildə el ağsaqqalları var idi, dəryadırlar. Atası ali təhsilli müəllim idi. Onlar folkloru, keçmişi bilən insanlar idi. Evdə həmişə aşıq yığıncaqları olardı. Zəlimxan Hüseyn Saraclı, Aşıq Kamandar məclislərinə çıxan, onlarla oturub-duran adam idi... Bu Vətən torpağı sevinir ki, Zəlimxan kimi insanlar onun qucağındadır.

***- Zəlimxan Yaqub dünyasını dəyişdikdən sonra həmsöhbətiniz kimlər olur?***

- Mənim günüm elə Milli Kitabxanada və Yazıçılar Birliyində keçir. Başqa gedəcək yerim yoxdur.

***- "Azəriqaz"dan illərdir uzaqlaşmısınız. Heç köhnə iş yerinizdən xəbər tuta bilirsinizmi?***

- Mən işləyən vaxt orda çox stabil sistem var idi. Təminat yaxşı idi, münasibətlər yüksək səviyyədə idi. Peşəkarlar çalışırdı. Amma indi tez-tez qaz təsərrüfatında xoşagəlməz hallar eşidirəm. Mütəxəssislərin ordan uzaqlaşdırılması, qaz təsərrüfatını bilən adamların ordan uzaqlaşdırılması və tez-tez bu sistemdə dəyişikliklərin baş verməsi anlaşılmayan bir şeydir. Məni narahat edən odur ki, uzun illər işləyən insanlar artıq ordan uzaqlaşdırılır. Qeyri-peşəkarların sayı daha çoxdur, təəssüf ki.

***- O vaxtdan işsizsiniz...***

- Yaradıcılıqla, ailənin qayğıları ilə məşğulam. Prezident təqaüdü alırdım, artıq başa çatdı.

***- Kamandar bəy, hansı anlarda sazı köksünüzə basıb simləri dinləndiririnizmi?***

- Çoxdandır əlimə saz almıram.

***- Niyə?***



**"Elə bilirəm dekabr gəlib məni də aparacaq"**

- Mənim çox dəhşətli taleyim olub. Bacım hələ ailə qurmadan dünyasını dəyişdi, ondan sonra sazı köynəyinə keçirib asdım yerinə. O vaxtdan əlimə almıram... Hardasa 6-7 ildir. O zamandan elə bil içimdə nəsə qırıldı. Elə o vaxtdan da ardıcıl faciələr, problemlər itkilər başladı. Mənim bu barədə bir şeirim də var. Həmin ilin dekabr ayında ardıcıl üç əzizimi itirdim. Hər ilin dekabrı gələndə elə bilirəm hansısa faciələrlə üzləşəcəyəm. Şeirimdə də yazmışdım ki, "dekabr gələndə qoruyun məni". Qohumlarıma müraciət etmişəm orda. Elə bil gözləyirəm ki, dekabr gəlib məni də aparacaq...

***- Bir ara səhhətinizdə problemlər yaranmışdı, ötüb keçdimi?***

- "Azəriqaz"da işlədiyim vaxt bir dəfə ürək əməliyyatı keçirdim. Sonra ikinci dəfə təkrar olundu. Bir müddət əvvəl isə baş-beyin problemi yarandı. Xəbərim olmadan insult keçiribmişəm. Üstəlik də baş-beyində kəskin qan dövranı problemi var. Neyrocərrahiyyə Mərkəzində lazerlə əməliyyat olundum, açıq əməliyyata isə açığı, ürək eləmədim. Belə deyək, hər günüm iynə-dərmanla keçir.

***- Allah köməyiniz olsun!***

- Sağ ol, qadan alım...

**(Söhbətin sonunda Kamandar Eyvazlı Zəlimxan Yaquba ithaf etdiyi şeiri də təqdim etdi)**

***Ağırdı, bu yükü çəkə bilmirəm,***
***Salıbdı bizləri dərdə, Zəlimxan.***
***Baxıram, hər yanda onu görürəm***
***Göydə Zəlimxandı, yerdə Zəlimxan.***
***Yaşadı, qəlbində bir işıq oldu,***
***Şeirnən, sənətnən yar-aşıq oldu,***
***Soyuq məzara da yaraşıq oldu,***
***Yatdığı torpaqda, yerdə Zəlimxan.***
***Kamandar unutmaz hələ səsini,***
***Alovlu eşqini, od nəfəsini.***
***Görəydim Allahın möcüzəsini***
***Gələydi dünyaya bir də Zəlimxan.***

**Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT

N 12 (6333) 18 yanvar 2016



# Ermənistan Rusiyanın forpostu kimi cəzalana bilər

## Qarabağa dair yeni qətnamələrin qəbulu ilə AŞPA-nın işğalçı ölkəyə öz yerini göstərəcəyi gözlənilir; İrəvanın narahatlığının səbəbləri ciddidir; rusiyalı politoloqdan bəd proqnoz: "2016-cı il Qarabağa sülh gətirməyəcək..."

**Gələn həftə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasında Dağlıq Qarabağ aidiyyəti olan və Azərbaycanın maraqlarını ifadə edən iki qətnamə layihəsi müzakirəyə çıxarılacaq. Onlardan biri "Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ və digər ərazilərindəki zorakılıqlar", o biri isə "Sərsəng su anbarı"nın ermənilər tərəfindən qanunsuz istismarı haqdadır.**




**Hər iki sənəd ötən il qurumun müvafiq komitələrində (Siyasi və Sosial komitələrində) artıq təsdiqlənib.** Onların AŞPA-da qətnamə şəklini alması sözsüz ki, Azərbaycanın haqlı mövqeyinin dünyada mötəbər bir təşkilat tərəfindən növbəti təsdiqi demək olacaq. Doğrudur, bundan qabaq da AŞPA Dağlıq Qarabağa dair ədalətli, Ermənistanı işğalçı kimi tanıyan qətnamə qəbul edib. Lakin məhz indi qurumun öz mövqeyini yenidən ortaya qoyması, həm də birdən-birə iki sənədlə ortaya qoyması xüsusilə mühüm əhəmiyyət kəsb edir. Ən azı iki səbəbdən.

**Birinci mühüm məqam odur ki, ilk qətnamə qəbul edilərkən Ermənistanın hərbi-siyasi müttəfiqi Rusiya dünya birliyi, Qərb tərəfindən birmənalı işğalçı kimi qəbul edilmirdi, Krım, Abxaziya və Cənubi Osetiyanı Moskva ilhaq eləməmiş, sonuncuya qarşı sanksiyalar tətbiq olunmamışdı.**

Həmçinin, Krımın işğalı ilə bağlı BMT Baş Məclisində Ukraynanın ərazi bütövlüyü ilə bağlı səsvermə də olmamışdı - hansı səsvermə zamanı ki, Ermənistan Rusiya ilə birgə 9 izqoy dövlətlə işğalı dəstəkləməklə eyni cərgədə yer almış, dünya birliyinin mövqeyinə qarşı getmişdi.

İkinci önəmli detal odur ki, forpost Ermənistan bu gün sanksiyalar altında olan Rusiyanın Qərbə qarşı, NATO üzvü Türkiyəyə qarşı təhlükəli planlarında heç vaxt olmadığı həvəslə iştirak etməkdə, bir növ hərbi poliqona çevrilməkdə və qonşu ölkələrin müharibə ilə təhdid olunmasında Moskvanın əlinə işləməkdədir.

**Bu da şübhəsiz ki, Qərbin, Avropa və ABŞ-ın, onların strukturlarının nəzərindən yayına bilməz.** Qərb onun da fərqindədir ki, Güney Qafqaz məhz işğalçı Ermənistanın Rusiyanın əlində alət olması, onun hesabına sürətlə hərbiləşməsi nəticəsində bu gün region normal iqtisadi və demokratik inkişafdan, sivil dünyaya inteqrasiyadan geri qalıb.

***

Bu xüsusda ehtimal kifayət qədər güclüdür ki, AŞPA gələn həftə məlum qətnamələrlə Ermənistana yerini göstərəcək. Zatən, bu, işğalçı Ermənistanın işğalçı müttəfiqi Rusiyaya da yerini göstərmək anlamına gəlmiş olacaq. O üzdən erməni rəsmiləri və deputatlarının sessiya öncəsi narahatlıq və əndişəsi yetərincə əsaslıdır.

Ancaq onlar özləri də etiraf edir ki, sənədlərin qəbulunu əngəlləmək asan olmayacaq və bu, təkcə Azərbaycan tərəfinin lobbi fəaliyyəti ilə bağlı deyil, həmçinin, dəyişən geosiyasi durum və qlobal konyuktura ilə, o sırada Krım (Donbas) böhranından sonra dünyada işğalçılara qarşı yanaşmanın sərtləşməsi ilə ilgildidir.

Bəllidir ki, Ermənistan prezidenti Serj Sərkisyanın göstərişi ilə erməni nümayəndə heyəti və diasporu sözügedən antierməni sənədlərinin qəbulunu əngəlləmək və ya onların məzmununu işğalçı ölkənin xeyrinə dəyişmək üçün hərəkətə keçib. Ermənilərin antitəbliğat kampaniyasını necə apardığı, yalanları necə həqiqət kimi qələmə verdiyi isə məlumdur. Odur ki, Azərbaycan nümayəndə heyətinin arxayınlşmasına da lüzum yoxdur.

***

Bəs bu kimi qətnamələr Qarabağ ixtilafının həll perspektivini necə təsir edəcək, yeni il üçün hansısa pozitiv gözləntilər mümkündürmü?

Tanınmış rusiyalı politoloq Qriqori Trofimçuk hesab edir ki, 2016-cı ildə münaqişənin həllində istənilən an dönüş ola bilər. "Xüsusən də Yaxın Şərqdə vəziyyətin gərginləşməsi, dünyada terrorçuluğun kəskin güclənməsindən və Azərbaycan-Ermənistan qarşıdurmasının faktiki, yarım-hərbi formata keçməsindən sonra bu, mümkündür. Dayanmaq, problemi həll eləmək nisbətən dinc dövrlərdə lazım idi. Hazırda situasiya öz-özünə inkişaf edir. Azərbaycanlılar, ermənilərə və ruslar indi hamılıqla güclü şəkildə səy göstərməlidirlər ki, münaqişə zonasına terrorçular nüfuz edib, burada əlavə problem yaratmasınlar", - deyə ekspert rusdilli vesti.az-a müsahibəsində bildirib.

Onun sözlərinə görə, 2016-cı ildə dünyada dinclik olmayacaq, əksinə, orada-burada müharibələr artacaq: "Odur ki, sülhü Dağlıq Qarabağda da gözləməyə dəyməz. Erməni-Azərbaycan qarşıdurması üçün həlledici il 2015 oldu. Keçən il faktiki surətdə münaqişənin donu açıldı. Bu - artıq baş verib, sadəcə, faktın özü hələlik heç də hamıya məlum deyil. Halbuki situasiya sıfır nöqtəsindən aşağı enməyə başlayıb".

Ekspertin fikrincə, nəzəri müharibə variantında Rusiya Ermənistanın tərəfini qeyd-şərsiz tuta bilməz: "Çünki o halda o, nəinki Azərbaycan-Türkiyə bloku ilə üz-üzə gələr, həmçinin, öz daxilindəki "müsəlman respublikaları"nın problemləri və başqa əlavə problemlərlə üzləşər. Rusiya savaş variantında Ermənistanı qeyd-şərtsiz yalnız o halda dəstəkləyəcək ki, bu və ya başqa səbəblərdən Azərbaycanla əlaqələr pozulsun".

Rusiyalı analitik Qarabağın separatçı liderləri Bako Saakyanın Moskvaya dəvət eləməsinə, orada "Arsax günləri"nin keçirilməsinə, Qırmızı Meydanda separatçıların "Arsax bayrağı" ilə gəzintilərinə və bütün bunlara Azərbaycan tərəfinin etirazına Rusiyanın göz yummasına da münasibət bildirib.

Sitat: "İndiki Rusiya Azərbaycanla Ermənistan arasında əbədi balans formatındadır. Ona görə də o, həmişə həssas və dayanıqsız nöqtədə yerləşəcək. Bako Saakyan təkcə Moskvaya yox, Londona, başqa yerlərə də gedir. Bu zaman onun getdiyi ölkələrin rəsmi şəxslərinin Saakyanın səfərlərinə reaksiyası təxminən eynidir: görməmişik, bilmirik, biz dəvət etməmişik.

Eyni şey Fələstin liderlərinin dünyaya səfərləri ilə bağlı bəyan edilir. Başqa sözlə, bu, tanınmamış ərazilərin birinci şəxslərinə qarşı çoxdan işlənmiş bir sxemdir. Bu zaman Moskva onu da başa düşür ki, əgər Saakyan Londonla əlaqələr qurursa, o zaman Güney Qafqazın müharibəyə yuvarlanacağı təqdirdə Qərb Qarabağın daha yaxşı dostu olacaq. Bu mənada belə bir faktı qeyd eləmək olar: nə Moskva, nə də İrəvan bugünkü Qarabağa yüz faizli nəzarətə malik deyil. Hətta Rusiyada Azərbaycan tərəfinin narazılığına səbəb olan tədbirlərin keçirilməsi də bu anlama gəlmir.

Başqa yandan, Rusiya ərazisində (yalnız Moskvada yox) tutaq ki, "Tibetin müstəqilliyi" tərəfdarı kimi çıxış edən fəallar gözə dəymir. Görünür, məsələ də elə ölkənin (konkret halda Çinin) separatçılıqla bağlı mövqeyində qətiyyətin ölçüsü və dərəcəsindədir. Gücün mövqeyi həm də ondadır ki, əgər siz birmənalı şəkildə özünüzünkü saydığınız əraziləri qaytarmaq niyyətindəsinizsə, o zaman bu məqsədə doğru yolda gərək xırdalıqlara varmayasınız. Söhbət bu və digər fakt və olaylara qlobal əhəmiyyət verib sonra da onları sıfra endirməkdən gedir. Bu - adi siyasi psixologiyadır, hansı ki, sadə olmayan məsələlərdə onun da öz yeri olmalıdır".

***

Rusiyalı ekspertin bəzi fikirləri ilə razılaşmaq çətindir. Məsələn, Kremlin "KQB tulası" sayılan Bak Saakyana və bütövlükdə separatçı rejimə guya tam nəzarət etmədiyi haqda fikri yüngül tənqidə belə dözümsüzdür. Çünki Moskva nəinki Qarabağdakı bir ovuc separatçıya, həm də işğalçı Ermənistana bütünlüklə nəzarət edir. Zatən, bu nəzarət mexanizmi separatçı qurumun və türk torpaqlarında yaradılmış qondarma dövlət olan Ermənistanın yeganə və əsas varlıq qarantdır.

**Tröfimçukun bir fikri ilə yüzdə yüz razılaşmaq olar ki, torpaqlarını geri almaq istəyən bir ölkə, o cümlədən Azərbaycan işğalçıdan dəfələrlə üstün olmalıdır. Xüsusən də hərbi göstəricilər üzrə.**

## Türkiyə XİN başçısından önəmli Qarabağa açıqlaması

## Mövlud Çavuşoğlu: "Azərbaycanın məsələsi birbaşa bizim məsələmizdir..."



**"Dağlıq Qarabağ problemi həll olunmayınca Türkiyə-Ermənistan münasibətləri düzəlməyəcək". APA TV-nin məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Qaziantepdə səfirlərin toplantısında bəyan edib.**

Mövlud Çavuşoğlu çıxışında Türkiyənin qonşuları ilə münasibətlərindən də danışıb. O bildirib ki, Rusiya Türkiyəyə qarşı qərarlar qəbul etsə də, Ankara cavab addımı atmayıb. Rusiya hərbi təyyarəsinin vurulmasını xatırladan türkiyəli nazir "Kaş ki, bu olmayaydı, üzüldük, amma haqlı olduğumuz ortadadır" deyib.

Mövlud Çavuşoğlunun fikrincə, Rusiya Türkiyəni yox, öz əhalisini cəzalandırır, səyahət qadağası qoyur: "Bu olmaz. Antalyaya Rusiyadan turist gəlməyəcəksə, başqa ölkələrdən gələcək. Pomidoru onlar almayacaqsa, almaq istəyən çox ölkə var".

Türkiyə XİN başçısı bəyan edib ki, Ankara qonşuları ilə münasibətlərini səbəbsiz yerə pozmur. O, Ermənistanla münasibətləri də xatırladıb və Azərbaycan ərazilərinin işğalını xatırladıb: "Biz indiyədək Ermənistanla münasibətləri normallaşdıra, sərhədləri aça bilməmişik. Azərbaycanın məsələsi birbaşa bizim məsələmizdir. Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi və Qarabağ problemi dura-dura münasibətlərin heç bir şey olmamış kimi normallaşmasını gözləmək real yanaşma deyil. Bu istiqamətdə bütün addımları atmışıq və Minsk qrupunun cəhdlərinə çox güclü dəstək veririk".

Çavuşoğlu onu da deyib ki, Türkiyənin Ermənistanla soyuq münasibətlərin tarixi kökləri var.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# "Bəs, onda hökumət nəyə lazımdır?"

## Əli Məsimli: "Hökümət təxirə salmadan bir-birini tamamlayan addımlar artmalıdır"



Əli Məsimli

**"2015-ci ilin büdcəsi Milli Məclisdə təsdiq olunmuş büdcə proqnozlarına münasibətdə ən çox ixtisar olunan büdcə oldu. Devalvasiya bizim malların qiymətinin aşağı olması vasitəsilə müqayisəli üstünlüyə nail olub ixracı artırmalı, idxalın isə azalmasına gətirib çıxarmalı idi. Amma belə olmadı, idxal azalmadı. Deməli, bir amilə, devalvasiyaya güc verməklə büdcənin işi düzələn deyil, kompleks tədbirlər lazımdır".**

**Deputat, iqtisadçı Əli Məsimli** "Yeni Müsavat"a bu fikirləri devalvasiya qərarının ciddi kəsirlə üzbəüz qalan dövlət büdcəsinin zərərini minimuma endirmək üçün məqsədli şəkildə verildiyi barədə fikirləri şərh edərkən söylədi.

Qeyd edək ki, rəsmi məlumata görə, son devalvasiyadan Mərkəzi Bank 3 milyard manat gəlir əldə edib. Bir sıra ölkələrin təcrübəsində də devalvasiya qərarının büdcədəki çatışmazlıqların aradan qaldırılmasına yönəldiyi haqda yanaşmalar var. Ə.Məsimlinin sözlərinə görə, nəzəri cəhətdən və işlər düzgün qurulanda bu məsələdə həqiqət payının olması aydındı: "Devalvasiya büdcəyə və ödəniş balansına müsbət təsir göstərir, ona görə belə deyirlər. Amma işlər düzgün təşkil olunanda bundan maksimum effekt götürmək olar. Azərbaycan reallıqlarına gəldikdə isə 2015-ci ilin büdcəsinin timsalında demək olar ki, devalvasiyanın ötən ilki büdcəyə müəyyən təsir göstərdi, amma bu təsir nəzərəçarpan olmadı".

**Digər fərqli yanaşmalardan biri də budur ki, manatın ucuzlaşdırılması prosesi məqsədli şəkildə gedir. Əgər belədirsə, bu cür kritik vəziyyətin yaranması Mərkəzi Bankın nəyinə lazımdır? Ə.Məsimli bu fikirləri bölüşmür:** "Belə təəssürat yarana bilər, amma məncə, tam belə deyil. Devalvasiya təkcə əhaliyə mənfi təsir etmir ki, hər devalvasiyadan sonra bank sisteminin bir hissəsi duruş gətirsə də, digər hissəsi yaman günə qalır, o biri hissəsi isə batıb gedir. Ötən il fevralın 21-də çıxan qərar sübut edir ki, Mərkəzi Bank 21 fevraldakı şok devalvasiyaya yox, yumşaq devalvasiyaya meylli idi və buna çox ümid edirdi. Dekabrda isə ödəniş balansımızın bir il əvvəlki 10 milyarddan artıq müsbət saldosu əriyib getmişdi və manata təzyiq güclənmişdi. Sadəcə, manata təsir edən amillərin milli valyutamıza təzyiqi o qədər artıb ki, Mərkəzi Bank manatın məzənnəsini 1,55 manat ətrafında saxlamaq üçün indiyədək rastlaşmadığı çətinliklə rastlaşıb və 21 dekabr devalvasiyası zamanı fiksə edilmiş 1.55 manat səviyyəsində saxlaya bilmir. Hazırkı reallıqlar şəraitində bu, mümkün deyil".

**Ə.Məsimli belə ağır məsələlərdə məsuliyyəti yalnız Milli Bank rəhbərinin üstünə atmağın tərəfdarı olmadığını dedi**: "Azərbaycanda formalaşmış bir stereotipdən nə qədər tez uzaqlaşa bilsək, ümumi işin xeyrinə olar. Nədənsə çoxuna elə gəlir ki, dövlət büdcəsinin məsuliyyətini təkcə maliyyə naziri Samir Şərifov, manatın məsuliyyətini isə Mərkəzi Bankın sədri Elman Rüstəmov çəkməlidir. Onların məsuliyyətinin öz həddi var, qalanı hökumətin üzərinə düşür. Belə deyilsə, bəs, onda hökumət nəyə lazımdır? Ona görə də hazırkı durum bir koordinasiya mərkəzinin yaradılmasını tələb edir ki, oradan operativ tənzimləmə rejimi tətbiq edilsin".

**Deputat onun da bildirdi ki, Milli Məclisin qarşıdakı iclasında təkliflərini verəcək:** "Fikrimizcə, hökumət özü də xüsusi iclas keçirməli, "Təxirəsalınmaz Tədbirlər Paketi" hazırlamalı və həyata keçirməlidir. Bu zaman aşağıdakı məsələlərin həllini önə çəkməlidir: dollarla krediti olan vətəndaşların düşdüyü ağır durumun yüngülləşdirilməsi üçün zəruri tədbirlərin görülməsi; təbii qiymət artımı ilə süni qiymət artımının bir-birindən fərqləndirilməsi, manatın məzənnəsində baş vermiş dəyişiklikdən istifadə edərək, süni qiymət artımı, məqsədli mal qıtlığı yaradılması və digər sui-istifadə hallarının qarşısının alınması məqsədilə monitorinqlərin dairəsinin genişləndirilməsi və digər zəruri tədbirlərin həyat keçirilməsi; əhalinin aztəminatlı təbəqələrinin: azmaaşlıların, çoxuşaqlı ailələrin, pensiyaçıların, əlillərin qiymət artımı nəticəsində məruz qaldıqları maliyyə itkilərinin kompensasiyası; lüzumsuz və səmərəsiz xərclərin ixtisarı hesabına büdcə xərclərinin optimallaşdırılması, xərclərin əhəmiyyətli hissəssinin inkişafın prioritet sahələrinə və hökumətin sosial öhdəliklərinin vaxtında yerinə yetirilməsinə yönəldilməsi; daxili bazara daha çox lazım olan və idxalı əvəz edə bilən və ixrac qabiliyyəti olan malların istehsalının, nomenklaturasının genişləndirilməsinin təşviqləndirilməsi və dəstəklənməsi; kiçik və orta sahibkarlığın qarşısında duran bütün maneələrin aradan qaldırılması, bu vacib sahənin hərtərəfli inkişafına köməyin gücləndirilməsi və sair".

❑ Cavid TURAN

# Müğənnilər toy qiymətlərində endirim edəcəkmi?

## Qızılın bahalaşması da toyların sayını azaldıb; sifarişlərin çoxu təxirə salınıb...

**Ölkədə yaşanan iqtisadi böhran bütün sahələrə olduğu kimi toy biznesinə də ciddi təsir göstərməkdədir. Ən nüfuzlu şadlıq evləri və restoranlar belə müştəri azlığından şikayətlənir, çox az sayda toy sifarişləri aldıqlarını bildirirlər.**

*Şadlıq evləri boş qaldığı kimi qazancları daha çox toylardan çıxan şou-biznes nümayəndələri də toysuz qalıb. Bəs görəsən sənətçilər vəziyyəti bir qədər yumşaltmaq üçün toy qiymətlərində endirim edəcəkmi?*

**Müğənni Manaf Ağayev** artıq endirimlər etdiyini dedi: "Bundan öncə də dəfələrlə bildirmişəm ki, mən qiymət söhbəti etmirəm. Baxır toyu kim və harda keçirir. Elə adam var ki, onun imkanı yoxdur, onu öldürmək lazım deyil ki. Nəyə gücü çatır onu da verir". Müğənni yanvar ayında cəmi 3-4 toy sifarişi aldığını bildirib.

**Müğənni Təranə Qumral** isə sualımıza "Əgər toy yoxdursa nəyə endirim edək" sualı ilə cavab verdi: "Bilirsiz ki, bu an Azərbaycanda böhran vəziyyəti yaşanır. Buna görə də heç toy edən yoxdur. Bir toy olsun ki, endirimlər də edək. Qızıl bahalaşıb, heç kəs oğluna toy edə bilmir, cehiz bahalaşıb heç kəs qızına cehiz verə bilmir. Yanvar ayında ümumiyyətlə, toy sifarişi almamışıq. Fikrimcə, fevralda yəqin ki, vəziyyət yaxşı olar".



**Bəstəkar-müğənni Cabbar Musayev** toyların olmadığını, olan qalan toyların isə geri qaytarıldığını deyib: "Bu böhranı təkcə musiqiçilər deyil, bütün xalq yaşayır. Xalq o qədər çaş-baş qalıb ki, yanvar-fevral aylarında olan toyların hamısını geri qaytarıblar. Beləliklə sifariş edilən toyların cəmi 5-10 faizi qalıb. Çünki heç kim bilmir toy edib nə qədər xərc çəkəcək, restoranda hansı qiymətlər olacaq, bilmirlər ki, ümumiyyətlə adam gələcək, ya gəlmiyəcək. Bu vəziyyət stabilləşməsə, nə xalq toy edəcək, nə də musiqiçilər toy tapacaq".

**Cabbar Musayev** əvvəlki toy qiymətinə nisbətən endirim etdiyini deyib: "Hər zaman xalqın büdcəsinə uyğun hərəkət etmişik. Qiymətlərdə əvvəlkinə nisbətən aşağı düşmüşük. Amma hazırda toy yoxdur. Ancaq manat 2-3 manatadək devalvasiya edərsə, artıq əvvəlki qiymətə də gedə bilməyəcəyik. Ümid edirik ki, mart ayında vəziyyət stabilləşəcək. Vəziyyət niyə belə oldu, bu hansısa siyasət küləyidir, ya başqa şeydir, bilmirəm".

**Tanınmış xanəndə Elnarə Abdullayeva** isə ölkədə böhran yaşandığından xəbərsiz olduğunu deyib: "Ölkədə, dünyada nə baş verirsə xəbərim yoxdur. Devalvasiyanın isə nə demək olduğunu bilmirəm. Biz çətinliyə öyrəşən adamıq. Mənim üçün nə fərqi var, az oldu, ya çox oldu. Az olanda qaloş geyinəcəm, çox olanda yaxşı ayaqqabı geyinəcəm. Mənim şüarım belədir. Ölkədə nə gedir, nə getmir bilmirəm, əsas odur ki, can sağlığı olsun".

**Müğənni toy sifarişlərindən də razılıq edib**: "Allah camaatımıza dəyməsin, bu ay toy sifarişlərim olub".

**Müğənni Nazənin** isə hazırda xaricdə olduğunu, buna görə suala cavab verə bilmədiyini deyib.

❑ Xalidə GƏRAY

# Bakıdakı bomjların səfil həyatı

## 95 faizlik təmiz spirti araq əvəzinə içən bu alkoqoliklərin yalnız bir hədəfi var...

**Bakı küçələrində hər birimiz demək olar ki, gün ərzində səfil həyatı yaşayan bomjlarla rastlaşırıq. Onlar arasında çarəsizlikdən küçə həyatı yaşayan, sığınacaq yeri olmadığından küçə tinlərini, xarabalıqları özünə məskən seçənlər də var.**









Bəzi bomjların gündəlik məqsədi isə bir şüşə araq və bir tikə çörək tapmaqdır. Bir sözlə, onları alkoqolik də adlandırmaq olar. Bu cür şəxsləri əslində içki aludəçisi olmaları səfil həyata sürükləyib. Onların gündəlik işi nə olur olsun, hansı yolla olur olsun, içki tapmaqdır.

Küçələrdə yaşayan alkoqoliklər günlük məqsədinə çatmaq üçün təbii ki, hər zaman maddi problemlə üzləşirlər. Ən ucuz arağı almaq üçün onlara minimum 1.5-2 manat lazımdır. Bu isə əlbəttə heç bir qazancı olmayan bomjlar üçün böyük məbləğdir. Onlar daha çox qarşılaşdıqları insanlardan çörək pulu adı ilə araq almaq üçün pul istəyirlər.

Son zamanlar alkoqolik özləri üçün yeni və onlar üçün sərfəli olan çıxış yolu tapıblar. İndi onların əksəriyyəti gündəlik içkiyə olan tələbatlarını 95 faizlik təmiz spirtlə ödəyirlər. Bəli, bu, nə qədər təəccüblü gəlsə də belədir. Zaman-zaman intihara cəhd edən şəxslərin 95 faizlik təmiz spirtdən istifadə etməsinin şahidi olmuşuq. Lakin bomjlar gündəlik içkiyə tələbatlarını bütün apteklərdə satılan bu spirt vasitəsi ilə ödəyirlər. Təmiz spirtin 100 ml-i 50 qəpikdir. Bomjlar 100 ml spiriti 0.5-1 litr su ilə qataraq içirlər. Bu isə necə deyərlər onların büdcəsinə uyğun gəlir.

Bomjların yaşadığı bir neçə yerə baş çəkərkən də boş spirt şüşələri ilə qarşılaşdıq. Onlar əsasən gecə saatlarında içki qəbul etdikdən sonra yatırlar. Bomjlar daha çox gecələr donmamaq üçün içdiklərini deyirlər.

Bu cür həyat yolu seçən insanlar, alkoqoliklər cəmiyyət tərəfindən qəbul edilmədikləri kimi, sığınacaqlar tərəfindən belə qəbul edilmirlər. Cəmiyyətdən tamamilə təcrid olunmuş bu insanlar seçdikləri həyat yolu ilə necə deyərlər, ömürlərinin sonunu gözləyirlər. Təsadüfü deyil ki, çox zaman küçədə səfil həyat tərzi sürən, kimliyi müəyyən edilməyən şəxslərin donaraq, zibilxanalarda və xarabalıqlarda yanaraq ölməsi ilə bağlı xəbərlər eşidirik.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən alkoqol asılılığı diaqnozunun təyin olunmasının 6 meyarı müəyyənləşdirilib. Bu meyarların sonuncusunda haqqında danışdığımız şəxslərdən bəhs edilir. Bu meyara görə, insanın məişəti və şəxsi həyatı içki ətrafında qurulur. Alkoqolla bağlı olmayan digər maraqlar isə sonrakı yerlərə keçir. ÜST-nin də müəyyən etdiyi bu diaqnozdan da görünür ki, bu cür insanların yenidən cəmiyyətə və normal həyata qayıtması çox çətindir. Lakin Avropa ölkələrində ən azından buna cəhd edilir. Və bu istiqamətdə xeyli müsbət nəticələr də əldə olunub.

Bəzi Avropa ölkələrində bu insanlar üçün sığınacaqlar var və həmin şəxsləri alkoqoldan xilas edilməsi üçün mütəmadi olaraq müalicələri təşkil olunur. Azərbaycanda isə bomjlar üçün yaradılan sığınacaqlar nadir hallarda rastlaşırıq. Bu şəxslərin nəyin ki, müalicəsi, heç yaşaması üçün sığınacaqlar da yoxdur.

**Xatırladığımız odur ki, ötən ilin qış aylarından birində bomjlar üçün yaradılan bir neçə günlük sığınacaqlar var idi. Bu il isə nədənsə həmin sığınacaqları görə bilmədik.**

❑ İlkin MURADOV

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016

**Gəncə şəhər sakini, 1983-cü il təvəllüdlü Kamal Yaqubov yanvarın 15-də yaşadığı evdə özünü asıb. Yaxınları bildiriblər ki, Kamalın çoxlu borcu olub və qaytara bilmədiyi üçün intihar edib. Onun 1 yaşlı oğlu və 5 yaşlı qızı var. Ondan bir gün əvvəl isə Ramana qəsəbə sakini, 3 uşaq atası bankdan dollarla götürdüyü krediti ödəyə bilmədiyi üçün özünü asmışdı.**

# Kredit borcuna görə intihar etməyin: ailənizdən alacaqlar!..

## Hüquqşünas və psixoloqdan qiymətli tövsiyələr



Son vaxtlar informasiya lentlərində adi, quru xəbər formasında verilən, əslində isə hər birinin arxasında dəhşətli faciə dayanan bu kimi xəbərlərə tez-tez rast gəlirik. Təkcə son 1 ayda borca görə intihar edənlərlə bağlı 6 məlumat dərc edilib. Son günlər İmişlidə, Ağcəbədidə, Sumqayıtda da oxşar faciələr yaşanıb.

Ekspertlər narahatdırlar ki, kredit borcuna görə intiharlar daha da artacaq. Çünki əhalinin 30-40 faizinin banklara borcu var və manatın ikinci devalvasiyasından sonra dollarla borcu olanlar daha da çıxılmaz vəziyyətə düşüblər.

*Bəs intihar çıxış yoludurmu? Özünü öldürən şəxslərin borcu ləğv edilirmi? Ölən şəxsin borcunu ailəsi və ya ona zamin dayanmış şəxs ödəməlidirmi?*

Ekspert Azər Məmmədov deyir ki, intihar və ya hansısa səbəbdən ölən şəxsin banka borcu silinmir, həmin borc kredit götürənin girov qoyduğu əmanətin satılması hesabına banka ödənilir: "Məsələn, maşın və ya mənzil girov qoyaraq kredit götürülübsə, əvvəlcə ölən şəxsin ailəsi və ya yaxınlarına krediti ödəmək təklif edilir. Ailə krediti ödəməkdən imtina edirsə, girov qoyulan əmlak satılaraq kredit ödənilir. Girov satılandan sonra kredit tam ödənilmirsə, ailə qalan borcu ödəməlidir. Əks halda bankın məhkəməyə müraciət etmək hüququ var. Məhkəmə ailənin qalan əmlakını siyahıya alıb, kreditin ödənilməsi üçün satılmasına qərar verə bilər".

**Vəkil Əkrəm Həsənov** isə deyir ki, insanlar intihara əl atmazdan əvvəl öz hüquqlarını öyrənməli və məhkəməyə müraciət etməlidir: "Vəfat etmiş borclunun krediti onun əmlakı hesabına ödənilməlidir. Bu əmlak onun vərəsələrinə keçdikdə, onlar kreditə görə yalnız onlara keçmiş miras həddində məsuliyyət daşıyırlar. Bu isə o deməkdir ki, vərəsələrin öz əmlakı kreditin ödənilməsinə cəlb edilə bilməz. Buna görə də bankların kreditin ödənilməsini mərhumun ailə üzvlərindən tələb etməsi qanunsuzdur. Mərhumun əmlakı yoxdursa, yaxınları və ya ailəsi kredit ödəməməlidir".

Ə.Həsənovun sözlərinə görə, borcu olanlar intihar və bu kimi fikirlərə düşməsinlər. Çünki borca görə həbs və ya digər cəza tətbiq edilə bilməz. Yalnız məhkəmə qərarı olduğu halda qərəzli və üzürlü səbəb olmadan borcu ödəməkdən imtina edənlər həbs edilə bilərlər. Çünki bu, Cinayət Məcəlləsinin 306-cı və İnzibati Xətalar Məcəlləsinin 313-1-ci maddələri ilə tənzimlənir.

"Təəssüf ki, çox zaman banklar vətəndaşları bu maddələrlə qorxudur. Halbuki borclu yalnız əmlakı ilə məsuliyyət daşıyır. Amma burada da müəyyən istisnalar var. Məsələn, Nazirlər Kabinetinin 5 iyun, 2002-ci il tarixli, 89 saylı qərarı ilə girovda olmayan bir ev, mebel, paltar, uşaq ləvazimatı borcludan alına bilməz. Məhkəmə qərarı ilə borclunun aylıq gəlirinin, o cümlədən maaş və ya pensiyasının maksimum 50 faizi tutula bilər. Bu zaman borclunun və himayəsində olan şəxslərin yaşayış minimumu toxunulmazdır. Yəni borclunun gəlirinin yalnız sözügedən yaşayış minimumundan artıq hissəsi tutula bilər"- Ə.Həsənov deyir.

Kreditlərin əsas hissəsindən başqa faiz borcunun məbləği də şişirdilir. Vəkil isə qanuna əsasən kredit üzrə faizlərin ildə bir dəfə tutulmalı olduğunu deyir. Ancaq onun sözlərinə görə, təcrübə göstərir ki, bəzi banklar ayda bir dəfə faiz tutur və bununla da borcu şişirdirlər. Borclular isə bankdan, məhkəmədən əvvəl və ya məhkəmə prosesi əsnasında, indiyədək edilən ödənişlərin yenidən hesablanmasını tələb edə bilərlər.

"Onlar əmin olsunlar ki, ödənişlər yenidən hesablandıqda əsas borc azalacaq. Bundan əlavə, borcun ödənilməsini gecikdirdikdə, bank ödənişdən cərimə tutur. Amma bu cərimələr qanunsuzdur. Buna görə də cərimənin tutulmayacağı haqda bankdan yazılı iltizam alınmalıdır, əks halda borclu krediti ödəməkdən imtina etsin. Dollarla krediti olanlar isə Mülki Məcəllənin 422-ci maddəsinə istinad edərək şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar kredit müqaviləsinin dəyişdirilməsini, o cümlədən kreditin valyutasının manata çevrilməsini tələb edə bilərlər" - hüquqşünas deyir.

Ə.Həsənov intihar etmək fikrinə düşənlərə daha bir məsləhət verir. Onun sözlərinə görə, ümumiyyətlə, borclular məhkəmə prosesindən qorxmamalıdır. Əksinə, çoxsaylı və uzunmüddətli (borclu istəsə məhkəmə prosesini 2-3 il uzada bilər) məhkəmə proseslərindən banklar qorxur. Əvvəla, ona görə ki, məhkəmə proseslərini aparmaq üçün maddi və kadr resursları azdır. Digər tərəfdən isə belə proseslər zamanı kreditlər heç ödənilmir və bankın müflisliyi reallaşır. Daha sonra bir qayda olaraq, faizlərin hesablanması dayandırılır.

"Başqa bir məqam. Məhkəmə prosesi nə qədər çox çəkirsə, bankın da girovu satıb pulunu götürməsi təxirə salınır. Böyük ehtimalla məhkəmə prosesi bitəndə girovun da dəyəri xeyli azalmış olacaq. Nəhayət, məhkəmə prosesi əsnasında borclu da faizlərin yenidən hesablanması, güzəştlərin tətbiqi, cərimələrin silinməsi və digər tələblərlə banka qarşı iddialar irəli sürə bilər"-hüquqşünas bildirir.

*Bəs devalvasiya və ya dolların bahalaşmasından sonra əlavə yaranmış borcların psixoloji gərginliyindən necə azad olmaq olar?*

Söhbətləşdiyimiz **psixoloq Günay Əliyeva** deyir ki, intiharlar artıq bütün dünyanın probleminə çevrilib: "Depressiv, emosional pozuntuların artması, bir yaşayış mühitindən digərinə keçid, insanların stressə qarşı dözümsüzlüyü son nəticədə intiharlara səbəb olur. Müşahidələr göstərir ki, daha çox gənclər dözümsüzlük nümayiş etdirirlər. Buna görə də son 10 illikdə intiharın cavanlaşması müşahidə olunur".

**Psixoloq hesab edir ki, ağır yaşayış tərzi, üstəlik borc insana yükdür:** "Əlavə informasiyalar da psixoloji gərginliyi artırır. Bəzən insan buna dözmür. Buna görə də xırda qığılcımlar insanı intihara sürükləməyə səbəb ola bilir. Diqqət yetirin, borc və ya ağır həyat tərzinə görə əsasən cavan və orta yaşlı insanlar intihar edirlər. Yaşlı nəsil isə daha çox ağır xəstəlik, tənhalıq kimi problemlərdən çıxış yolu tapa bilmirlər. 5-6 il əvvəl kredit borcuna görə intiharlar, demək olar ki, yox idi. Hazırda isə bu mövzu aktuallaşıb, get-gedə də dərinləşir. Əslində səbəb nə olursa-olsun, insan çıxış yolu tapmayanda intihara əl atır. Bank problemləri də indi həlli müşkülə çevrilən problemlərdəndir. Sadəcə, insanların stressə, ağır vəziyyətinə münasibəti azalıb, bank kreditləri də buna bir təkandır".

**G.Əliyeva deyir ki, bank kreditləri ilə bağlı intiharların qarşısını hansısa güzəştlərlə almaq cəhdləri yüz faiz nəticə verməyəcək:** "Cəmiyyətdə müəyyən aşınmalar baş verir və bunda informasiya bolluğu da rol oynayır. Təəssüf ki, sosial durumu ağır olanlar, problemli insanlar psixoloji dəstək almaqdan məhrumdurlar. Buna görə, əsas vəzifə yenə də yaxınların, doğmaların üzərinə düşür, onların psixoloji dəstəyinə ehtiyac qalır. Ümumilikdə isə, sosial problem qabardan verilişlərin verilməsi, intihar, kriminal xəbərlərin çoxluğu vəziyyəti daha da dərinləşdirir".

**Psixoloq intiharların sosial bələ kimi cəmiyyətin əsas probleminə çevriləcəyini, buna görə də gənclərlə iş aparmağın vacib olduğunu deyir. Hələlik isə görünən odur ki, kredit qurbanları ilə bağlı xəbərlər hələ çox eşidiləcək (Virtualaz.org).**

# Kim deyir ki, Avropa cənnətdir?



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Elektron ünvanıma bir-birinin ardınca, eyni mövzuda gələn məktublar olmasaydı, bu yazını da yazmayacaqdım. Keçəndəfəki Avropadakı mühacirlər yazı silsiləsindən sonra da buna bənzər reaksiya ilə üzləşmişdim. Mən gedib, Avropanın bəzi ölkələrindəki azərbaycanlı mühacirlərdən müsahibə almışdım, burdakı insanlarımız onların yolunu davam etdirmək üçün həvəslənmişdilər. Əllərini xəritənin üzərində gəzdirib, "ya ondadır, ya bunda... Halvaçının qızında..." deyib, ölkə seçmişdilər. Sonra da yazmışdılar: "Siz bütün ölkələri gəzdiniz. Deyin görək, hansına getsək yaxşıdır?"**

Bəli, bunu yazanların həyatında ölkəni tərk etmək üçün o deyilən səbəblərdən heç biri baş verməmişdi. Nə siyasi təzyiqə məruz qalmışdılar, nə də bədəbəddə cinsi orientasiya qayğıları vardı, nə də başqa bir şey. Onlar sadəcə rahat həyat istəyirdilər. "Rahat" sözünün altında isə müavinət, ev-eşik, uşaqların Avropada böyüməsi istəyi vardı. İndi qalxıb kimsə iddia edə bilər ki, insanların Avropada yaşamaq istəyi tam normaldır və kim hansı yolla bacarırsa buna nail olmalıdır. Azərbaycansayağı desək, bacarana can qurban. Amma mən bu səfərlər zamanı çox adam tanıdığım üçün o cür adamlara heç də "can qurban etmənin" tərəfdarı deyiləm. Neyçün ki, onların bəziləri almanın, fransızın müftə müavinətini alıb, onun torpaqlarında yaşamaq üçün hansısa yalanlar uydurursa, Spilberqsayağı ssenarilər yazırsa, buna alqış-filan düşmür. Əslində bizim camaat sevir belə şeyləri. Bir çox hallarda rüşvətxor məmura da, acgöz tacirə də "bacarana can qurban" prinsipi ilə yanaşır. Onun yerində olmağı arzulayır, niyə də olmasın deyib, iç çəkir.

Amma mən yalançı mühacirə başda avropalı olmaqla, vicdanlı insanın münasibətini çox yaxşı bilirəm. Məsələn, sıravi avropalı üçün onun ödədiyi vergilər hesabına, üstəgəl ölkəsindən qaçmaq üçün heç bir səbəbi olmayan birinin gəlib mühacir həyatı yaşaması xoş bir hiss deyil. Siz Misirdən, Suriyadan canını götürüb, qayıqlarla, gəmilərlə Avropa yolu tutanlara baxmayın. Onların ciddi səbəbləri var. Halbuki gəlib, Avropa insanlarını narahat etdiklərinə, kriminal aura yaratdıqlarına, qadınlara qarşı qeyri-əxlaqi hərəkətlərə yol verdiklərinə görə onlara da uzun müddət təhəmmül göstərməyəcəklər. Bunun siqnalları artıq verilir.

Amma bizimkilərin bəzisi bu fonda necə görünür bilirsizmi? Siyasətin "s"sindən xəbəri olmadığı halda, bir-iki mitinqdə foto çəkdirdiyi üçün özünü Avropanın isti qucağına atmaq istəyən kəmfürsətlər kimi. Balaca uşağı belə güldürəcək mühacirət səbəblərindən danışmıram hələ. "Yolda gedəndə "uçastkovı" mənə əyri-əyri baxdı" tipli bəhanələri o qədər eşitdim ki, bu müsahibələr zamanı.

Kim deyir ki, qürbət, mühacirət cənnətdir? Vallah, pafosdan uzaq olsun, amma gəzməyə qərib ölkə deyiblər, yaşamağa yox. Hətta dünyanın ən gözəl ölkəsi, şəhəri belə bir həftəlik gəzintidən sonra sənə bəs edir. Darıxırsan, böyüyüb boya-başa çatdığın yerlər üçün burnunun ucu göynəyir. Həmin ölkələrdə heç bir halda doğma, özününkü saymırsan. Öz boşqabında olmursan, doğmalaşa, doğmalaşdıra bilmirsən özünü. Həyatına, yaşantına dair heç nə tapa bilmirsən o böyük şəhərlərdə.

Siz şapalaqla üz qızardanlara baxmayın. Gedib,ordan xoşbəxt insan pozası verənlərin içində hər zaman bir qırıqlıq olur. Darıxırlar, peşman olurlar zaman-zaman... Bakıdan gələn hər zəng onları qorxudur, həyəcanlandırır. İstədikləri vaxt doğmaların yanında ola bilməmənin ağırlığından danışmıram hələ.

Üstəgəl, Avropanın bir çox şəhərlərinə miqrant axınını nəzərə alanda, heç də pənah gətirdiyiniz yerlər cənnəti xatırlatmır. Dekabrın 31-dən 1-ə keçən gecə Parisdə, Eyfelin ətrafındakı mənzərəni daha öncə oxuculara çatdırmışdım. Gözəlim Eyfel ətrafdakı auradan daha çox Suriya küçələrini xatırladırdı. Göyə şampan butulkası atan ərəblər, topalaşıb oriental rəqs edən suriyalı gənclər. Alman qadınlara təcavüz edən miqrant xəbərindən danışmıram hələ.

**Cənnəti sərhəd adlayaraq axtarmaq mənasızdır bəzən. Xüsusən də nə istədiyini bilməyəndə...**

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016

# Qiymət endirimləri, yoxsa hökumətlə oliqarx biznesmenlər arasında müvəqqəti sövdələşmə?

## İqtisadçı-ekspert: "Hökumət qısamüddətli nəticələrə səbəb olacaq addımlardansa, ciddi struktur islahatları həyata keçirməlidir..."

**İkinci devalvasiyadan sonra ərzaq məhsullarının qiymətində kəskin artım oldu. Bu artımın bəzi işbazların yaratdığı süni qiymət artımı olduğunu deyən Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti ərzaq məhsullarının qiymətini süni şəkildə artıranlara qarşı mübarizə aparır. Bəs bunun nəticəsi varmı?**

Bunu öyrənmək üçün bazar və marketlərə üz tutduq. Marketlərdə cüzi ucuzlaşma olsa da, bazarda bunu daha çox hiss etmək olurdu. Belə ki, baş çəkdiyimiz "Yaşıl bazar"da kənd təsərrüfatı məhsullarının qiymətində azalma müşahidə etdik. Əvvəllər 3 manat 50 qəpik 6 manata satılan badımcanlar indi 3-4 manat arasında, 3 manata satılan pomidor indi 2 manat, 2 manat 50 qəpiyə, 3 manat 50 qəpiyə, 4 manata satılan xiyarlar isə 2 manata satılırdı. 1 manat 50 qəpiyə satılan kartof 1 manata, 1 manata satılan soğan 70-80 qəpiyə satılırdı. Balıqların qiymətində isə heç bir artım ya da azalma yox idi. Ətin də qiymətində heç bir dəyişiklik olmadığını deyən qəssablar elə əvvəlki qiymətə, dana əti 7 manat 50 qəpiyə, qoyun ətini isə 8-10 manat arasında satırdılar. Qəssablar hətta alıcı olarsa, qiymətdə mümkün olan qədər aşağı da düşdüklərini deyirdilər. Kartof, soğan satıcısı isə deyir ki, kartof soğanın qiyməti az da olsa düşüb. İndi nisbətən ucuz alırıq deyə, ucuz da veririk. Digər ərzaq məhsullarının qiyməti düşsə, bazarlarda da xeyli ucuzlaşma olacaq".

**Satıcı Əfruz Əliyeva** isə alıcıların azlığından gileylənir: "Pomidorun kilosunu 2 manata verirəm, amma yenə alan azdır. Bayaq bir müştəri gəldi ki, 1 manat 50 qəpikdən ver. Verdim getdi. Heç tərəziyə qoyub çəkmədim. Camaatın vəziyyəti ağırdır. Mən baha verməklə kim gəlib alır, heç kim. Məhsul əlimdə qalır. Ona görə də ucuz satıram".

Alıcıların da fikrini öyrənməyə çalışdıq. **Bazarda alış-veriş edən Səbuhi Allahverdiyev** ucuzlaşma olsa da bunun elə də böyük məbləğlərdə olmadığını dedi: "Az da olsa ucuzlaşma var. Oda bütün məhsullarda deyil, bəzilərindədir. Yaxşı olardı ki, qiymətlərdə nəzərə çarpacaq endirimlər etsinlər ki, əhalinin bazarlıq etməyə cibindəki pul yetsin".





Marketlərdə isə vəziyyət bir qədər fərqli idi. Belə ki, marketlərdə endirimlər çox az idi. Bəzi marketlərdə yumurta yenə 20 qəpiyə bəzilərində isə 16-18 qəpiyə satılırdı. Mağazalarda daha çox unun, yumurtanın qiyməti düşmüşdü.

Maraqlıdır, iqtisadçılar şərhlərində deyirdilər ki, bazar iqtisadiyyatı şəraitində süni qiymət artımından söz gedə bilməz, bu terminin sovet dönəmindən qaldığını və unudulması gərəkdiyini deyirdilər? Bəs hazırkı vəziyyəti necə adlandırmaq olar? Doğrudanmı, lazımı ərzaq məhsullarının qiymətini insanların büdcəsinə uyğun dərəcədə ucuzlaşdırmaq olar?

**İqtisadçı-ekspert Rəşad Həsənov** bildirdi ki, hazırkı xırda ucuzlaşma dövlətlə oliqarx biznesmenlərin arasında müəyyən razılığı əsasındadır və insanların adaptasiya prosesindən sonra yenə qiymətləri qaldıracaqlar: "Biz devalvasiya baş verən gün açıqlamalarımızı verdik ki, növbəti dövrlərdə devalvasiyanın sosial yükünü nisbətən yumşaltmaq məqsədi ilə hökumət adminstrativ təzyiqlər formasında qiymət bahalaşmasının qarşısını almağa cəhd göstərəcək. İlk fevral devalvasiyasında bu kimi təşəbbüslər hökumət tərəfindən daha yüksək səviyyədə olsa da, ikinci devalvasiyada müəyyən qədər boşluq yarandı. Sonrakı dövrlərdə, xüsusilə də regionlarda bununla bağlı əhalinin etirazlarının başlaması hökumətin bu istiqamətdəki səylərini nisbətən artırdı. Təbii ki, bazar iqtisadiyyatı olan bir ölkədə süni qiymət artımı, işbaz kimi ifadələrin işlədilməsi doğru və real deyil. Bazar şərtlərinin, liberal iqtisadi mühitin normal olduğu, monopoliyanın olmadığı təqdirdə heç kim bununla bağlı amillərdən danışa bilməz. Əgər Azərbaycanda bununla bağlı söhbətlər gedirsə, hamısı normal iqtisadi mühitin olmaması səbəbindəndir".

**İqtisadçı bildirdi ki, bazarda qiymətlərin tələb və təklif əsasında formalaşmalıdır**: "İdxal məhsullarının qiymətində artım mütləqdir. Çünki bunlar xarici valyuta ilə alınır. Xarici valyuta isə Azərbaycanda dəyərini keçən illə müqayisədə 20 faiz itirib. Yerli istehsalın da 80-90 faizi idxal xammalından asılıdır. Bunların da qiymətinin bahalaşması normaldır. Kənd təsərrüfatı işi ilə məşğul olan insanın dollarla krediti varsa, bunu ödəmək, qiymətlərin bahalaşması fonunda ailəsini saxlamaq üçün daha çox manat qazanmalıdır. Burada aparılan makro-iqtisadi siyasətin fəsadlarını kəndçinin üzərinə yığmaq doğru deyil. Qiymətlərin ucuzlaşması ilə bağlı taxıl məhsullarının idxalı ilə bağlı olan 8 faizlik əlavə dəyər vergisinin götürülməsi maya dəyərinə müəyyən qədər təsir göstərir. Digər tərəfdən şirkətlərin bəziləri müəyyən səviyyədə qiymət artımına gediblər və hələ də qiymətləri ucuzlaşdırmayıblar. Azərbaycanda olan iqtisadi mühit və biznesin strukturu şərait yaradır ki, hansısa dövlət qurumu hansısa formada biznesmenə, oliqarxa təzyiq göstərsin. Yaxud dövlətlə oliqarx hansısa formada insanlardan yaradılmış avantajdan əldə olunmuş monopoliya gəlirlərinin bir hissəsini israf etməklə müvəqqəti olaraq qiymətləri müəyyən qədər aşağı salır və ya sabit saxlayır. İnsanlar prosesə adaptasiya olduqdan sonra qiymətlərin yenidən qaldırılması prosesini həyata keçirmək üçün hökumət qurumları ilə monopolist biznes arasında bir centelmen razılıq ola bilər. Azərbaycan reallığında sahibkarlara, oliqarxlara bu istiqamətdə tövsiyələrin verilməsi və ya tələblərin olması realdır. Bütün bu proseslərin nəticəsində itirən Azərbaycan vətəndaşı, azərbaycanlı istehlakçıdır. Düşünürəm ki, hökumət qısa müddətli nəticələrə səbəb olacaq addımlar atmaqdansa, ciddi şəkildə struktur islahatları həyata keçirməlidir. Eyni zamanda liberal iqtisadi mühitin, bazar iqtisadiyyatının formalaşdırılmasına start verməyin vaxtıdır".

❑ **Günel MANAFLI**



# Şənlikdən qayıdan ailə avtoqəzaya düşdü: 1 ölü, 4 yaralı...

**Sumqayıtda ağır yol qəzası baş verib. Lent.az-ın məlumatına görə, Sumqayıtın Heydər Əliyev prospektində "VAZ 21015" və "Geely" markalı iki minik avtomobili toqquşub. Nəticədə "VAZ 21015"də olan sərnişinlərdən 1991-ci il təvəllüdlü Orucov Vüsal İlqar oğlu aldığı xəsarətlərdən vəfat edib. Sürücü, 1990-cı il təvəllüdlü Bağırov Siyasət Ədalət oğlu, sərnişinlər - 1993-cü il təvəllüdlü Rzayeva Aynurə Camal qızı, 1990-cı il təvəllüdlü Orucov Vüqar İlqar oğlu və onun həyat yoldaşı - Orucova Tutu Ədalət qızı müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Qeyd edək ki, avtomobildə olan şəxslər bir ailənin üzvü olub. Onlar ad günü şənliyindən evə qayıdırlarmış. Faktla bağlı Sumqayıt Şəhər Polis İdarəsində cinayət işi açılıb, araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Nərimanov Rayon Məhkəməsinin həyətində (Montində) 2 maşınlıq daş qaraj satılır

Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.

**Telefon: (050) 264-49-99**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 12 (6333) 18 yanvar 2016

**Son günlərin ən aktual mövzusu heç şübhəsiz ki, anormal bahalaşma və bunun fonunda çörəyin qiymətinin qalxıb, daha sonra aşağı salınmasıdır. Bizim insanımız süfrəsində, mədəsində çörəyi hər zaman bol edir. Çörəyi sevən millətik. Amma süfrələrimizin baş tacı olan nemət barədə bilmədiklərimiz var. Onlar nələrdir və nələrə diqqət etməliyik?**



# Çörəyi çox yeməyimizin səbəbləri...

## Qiyməti qalxıb-enən nemət barədə bilmədiklərimiz...

Tarixçilərin və arxeoloqların dediklərinə görə, çörək bəşər övladına 15 min il bundan qabaq məlum idi. Qədim insanlar od almağı öyrəndikdən sonra qızmar daş üstündə şit kökə bişirməyə başlamışdılar. Bununla da qida problemi qismən həll edilmişdi. İnsan həyatı boyu digər qida məhsulları ilə birlikdə təqribən 15 ton çörək yeyir.

**2050-ci ilə qədər çörək qıtlığı yaşanacaq, çünki...**

İnsan sağlamlığı üçün çörək ancaq su ilə müqayisə edilə bilər. Çörək insan orqanizminin sulu karbonlara sutkalıq tələbatını təmin edir. Azərbaycanda bir adam il ərzində orta hesabla 130 kiloqramdan çox çörək istehlak edir. Bu statistikaya inansaq, azərbaycanlı gün ərzində təxminən 0,5 kq çörək yeyir. Bu göstəriciyə görə, ölkəmiz dünya ölkələri arasında liderlər sırasındadır.

Amerika alimlərinin hesablamalarına görə, 2050-ci ilə qədər bəşəriyyətdə çörək qıtlığı yaranacaq. Qeyd edək ki, mütəxəssislər bunu əksər ölkələrdə torpaqların yararlılıq müddətinin başa çatması ilə əlaqələndirirlər. Amma ekspertlərin sözlərinə əsasən, bu məsələdən daha çox əziyyət çəkən Şərq xalqları olacaq. Çünki şərqlilər çörəyə meylli olduğundan və qida rasionunda sözügedən məhsuldan istifadəyə üstünlük verdiklərindən onların tələbatını ödəmək çətinləşəcək. Yeri gəlmişkən, azərbaycanlılar da daha çox çörəklə qidalananlar sırasındadır. Məsələn, respublikamızda taxılçılığın inkişaf etdirilməsinə baxmayaraq, mövcud tələbatı ödəmək mümkünsüzdür. Buna görə də hökumət hər il Rusiya, Qazaxıstan və başqa dövlətlərdən taxıl idxal edir.

Halbuki adıçəkilən ölkələrin əhalisinin ümumi sayı Azərbaycandan dəfələrlə çoxdur və onlar təxminən respublikamızdakı taxıl sahələrindən bir qədər artıq buğda becərirlər. Amma bunun müqabilində digər dövlətlərə də taxıl ixrac edirlər. Təbii ki, başlıca səbəb çörəyə olan tələbatımızla bağlıdır

**Çox çörək yemək genetik koda söykənir...**

Bütün bunlarla paralel daha çox sual doğuran məsələ isə insanlarımızın niyə çörəyə bu qədər meylli olmasıdır. Təbii ki, bu, kasıblıqdan irəli gələn məsələdir. Çünki insanlarımız doymaq üçün daha ucuz, amma mədəni doyuran qidalardan istifadə edir. Qədim dövrlərdə Azərbaycan zəngin olmadığından və ayrı-ayrı dövlətlərin müstəmləkəsində yaşadığından xalqımız ağır həyat tərzi keçirib. Bu baxımdan onların qida seçimi çox bəsit olub. Eləcə də həmin ərəfələrdə əkinçilik, o cümlədən dənli bitkilərin becərilməsi sürətlə inkişaf etdiyindən insanlar qida rasionunda daha çox belə məhsullara üstünlük verirdilər. Amma burada bir məsələ də var ki, azərbaycanlı ailələrdə heç vaxt çörəkdən imtina müşahidə edilmir. Məsələn, biz balıq və digər məhsullarla təkrar-təkrar qidalana bilmərik. Lakin çörəyi gündə 3 və ya 4 dəfə qida rasionumuza daxil edirik. Təbii ki, bu proses genetik kodlarımızın nəcə formalaşması nəticəsində baş verir. Sözügedən məsələ insan psixologiyasının və fiziologiyasının durumundan da asılıdır. Yəni əcnəbilər əksər hallarda qida rasionlarına çörək daxil etmirlər və bu, artıq pozulmaz qaydadır. Məsələn, almanlarda buşteks adlı yemək var və qızardılmış ətdən ibarət olan həmin yeməyin süfrəyə verilməsi zamanı noxuddan, kartofdan, göyərtidən istifadə edirlər. Əgər hansısa alman restoranında buşteksin yanında süfrəyə çörək verilirsə, bu, ofisiantın kobud səhvi kimi qiymətləndirilir.

Həm heyvani, həm də bitki mənşəli zülallar orqanizm üçün həddən artıq vacibdir və immun sisteminin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Amma bitki mənşəli zülallar, yəni proteinlər orqanizmə daha xeyirlidir. Bundan başqa, çörəyin tərkibində kalsium, dəmir, maqnezium və B qrupu vitaminləri də var. Həmin maddələr hüceyrə və toxumaların qidalanmasında vacib rol oynayır. Çörəyin zərərli tərəfi isə yalnız karbohidratlarla bağlıdır. Çünki bu birləşmə insanlarda kökəlməyə meyllilik yaratdığından orqanizmi ağırlaşdırır.

Gün ərzində maksimum 400 qrama yaxın çörəkdən istifadə zəruridir.

**Köhnə çörəyi neçə gün yemək olar?**

İnsanlarımız bu günlərdə qənaət rejiminə keçdiyi üçün çörək məsələsində də buna riayət edirlər. Köhnə çörəyi isitmək, yumurta ilə qızardıb səhər yeməyində süfrəyə vermək... Bunların hər biri qənaət rejiminin vazkeçilməz nüanslarından sayılır. Bəs köhnə çörəyi neçə gün yemək mümkündür?

Respublika Gigiyena və Epidemiologiya Mərkəzi dəfələrlə çörək sexlərində monitorinq aparıb. Çörək və bulka məmulatları ilə bağlı laborator tədqiqatlar aparılarkən onlardan nümunələr də götürülüb. Hətta monitorinq zamanı götürülmüş nümunələrdə kartof xəstəliyinin törədicisi də aşkarlanıb.

Mütəxəssislər deyir ki, çörəyin saxlanma müddəti müvafiq normativ sənədlərlə müəyyənləşdirilir. Belə ki, onun 120 saat saxlanmasına icazə verən sənəd dövlət sanitariya orqanları tərəfindən hələ təsdiq olunmayıb. Amma elə müəssisələr var ki, onlar xüsusi qablaşdırma sistemindən istifadə etdiyi və çörəyin tərkibində məhsulun saxlanmasına zəmanət verən məhsullardan istifadə etdiyi üçün həmin müəssisələrə çörəyin maksimum 3 sutka saxlanmasına icazə verilir. Bu zaman da havanın temperaturu və nisbi rütubət mütləq nəzərə alınmalıdır. Belə ki, bu şəraitdə də çörəklərin 72 saatdan artıq saxlanmasına icazə verilmir. Adi halda çörəyin 25 saatdan yuxarı saxlanma müddəti yoxdur.

Azərbaycan Azad İstehlakçılar Birliyinin (AAİB) araşdırmasına görə, ölkə üzrə çörək istehsalı sahəsində subtilis (kartof çöpü) viruslarına yoluxma bir neçə yolla baş verir. Birinci variantda virusa yoluxma un vasitəsi ilə baş verir, yəni bakteriyalar taxılı yoluxdurur və ondan istehsal edilmiş un da yoluxmuş olur, daha sonra ondan istehsal edilən xəmir və çörək də virus daşıyıcısına çevrilir. Çünki həmin virusların vegetativ hüceyrələri 75-80 °C istilikdə ölsələr də, sporları hətta bir saat ərzində 120 °C istilikdə qaldıqda belə məhv olmur. Çörək isə maksimum 20 dəqiqəyə bişir. Yəni bu yolla bişən çörək virus daşıyıcısı olaraq qalır.

**Çörəyi yeməmişdən əvvəl qurudaq... niyə?**

Çörəklə bağlı daha bir neqativ hal isə onun çəkisini əhatə edir. Belə ki, standartlara görə, çörəyin üzərində onun dəqiq çəkisi və qiyməti qeyd olunur. Lakin Azərbaycanda bu cür təcrübə olmadığından istehsalçılar çörəyin çəkisilə manipulyasiya edir.

Azərbaycanda çörək zəruri ərzaq normasına daxildir. Taxılın adambaşına illik istifadə norması 180 kq müəyyən edilib. Amma adambaşına düşən çörək norması barədə rəsmi qurumlarda heç bir məlumat yoxdur.

Ən faydalı çörək emal olunmamış, təmizlənməmiş buğdadan hazırlanır. Belə çörəkdə buğdanın bütün faydalı xüsusiyyətləri saxlanılır.

Arpa unundan və ya arpa ilə buğda unların qarışığından hazırlanmış çörək də çox faydalıdır. Biz ona adətən "qara çörək" deyirik. Bu çörək daha gec mənimsənilir və ağ çörəklə müqayisədə onun tərkibində daha çox faydalı maddələr saxlanılır.

Buğda kəpəyi əlavə olunmuş çörək də çox faydalıdır. Kəpək mədə-bağırsaq sisteminə müsbət təsir edir, qəbizliyin qarşısını alır, orqanizmdən ziyanlı maddələri xaric edir.

Çörəyi düzgün yemək lazımdır. Bu nə deməkdir? Dietoloqlar çörəyi yeməkdən əvvəl bir qədər qurutmağı tövsiyə edirlər.

Boyat çörək yumşaq təzə çörəkdən daha faydalıdır. Bunu bütün həkimlər və diyetoloqlar təsdiq edir. Boyat çörək daha yaxşı mənimsənilir və köp, ağırlıq kimi xoşagəlməz hisslərə səbəb olmur.

Çörəyin üzərində kif varsa, belə çörəyi yemək olmaz. Bəzən insanlar üzərində kif olan tikəni kəsib qalan çörəyi yeyirlər. Bu qəti şəkildə yolverilməzdir. Kif göbələyin sporları gözlə görünmür və insan bilmədən bu sporları olan tikəni yeyə bilər. Kif göbələyi çox ziyanlıdır və nəinki qida zəhərlənmələrinin, hətta ağır qan və ağ ciyər xəstəliklərinin inkişafına səbəb ola bilər.

**Heyvana çirkli çörək yedirdirlər, nəticədə insanlar xəstələnir**

Azərbaycanda istehlakçılar çörəyin israfçılığına yol verir. Amma dünyanın aclıqdan əziyyət çəkmiş xalqlarında çörəyə xüsusi münasibət var. Azərbaycanda çörəyi ayaq altına zibilxanalara atırlar. Kirləndirilmiş çörəyin yenidən heyvanlara verilməsi isə insanların sağlamlığında öz əksini tapır. Heyvanlardan keçən xəstəliklər insanları bir anda məhv edə bilər. İnsan ekoloji cəhətdən təmiz qida qəbul edən heyvanların məhsulu ilə qidalanmalıdır. Məncə, sanitar-gigiyenik qaydalara zidd olan belə kiflənmiş çörəklərin satışının qarşısı dövlət orqanları tərəfindən alınmalıdır.

Bir çox hallarda çörəyin tərkibi və saxlanma müddəti standartlara uyğun olmur. Ona görə də ekspertlər alıcılara çörəyi daha çox parça kağız və ya digər pambıq vasitələrdə saxlamağı tövsiyə edir.

Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq şöbəsindən verilən məlumatda isə bildirilir ki, dükanlar satış müddəti başa çatmış çörəyi yenidən sexlərə qaytarır. Çörəkbişirmə sexləri də qayıdan məhsulu satış qiymətinin 50 faizi dəyərində vətəndaşlara satır. Onlar da heyvanlara verir.

Kolumbiya Universitetinin professorları çox çörək yeyən qadınlarda sonsuzluq riskinin artdığını açıqlayıblar. Hamilə qala bilməyən 188 qadının iştirak etdiyi araşdırmada qlutenli qidalar yeyən qadınlarda sonsuzluq riskinin 6 dəfə çox olduğu müəyyənləşdirilib.

Qlutenlə ən zəngin qidanın çörək olduğunu bildirən alimlər ana olmaq istəyənlərə çörəkdən imtina etməyi məsləhət görüblər.

Alimlərin sözlərinə görə, həddən artıq qluten qəbul edən kişilər də eyni problemlə üzləşirlər. Onların ata olmaq şansı 30 faiz azalır.

Çörəyin sonsuzluqla yanaşı, uşaqsalmaya, menstruasiya ilə bağlı problemlərin yaranmasına səbəb olduğu deyilir.

Qluten maddəsinin bəzi kosmetik vasitələrin tərkibinə də vurulduğunu bildirən həkimlər qadınların xüsusilə, dodaq boyalarına qarşı diqqətli olmalarını tövsiyə edirlər.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 12 (6333) 18 yanvar 2016

# 5 ay selfi çəkib evlənmə təklifi etdi

**Hamilə sevgilisinə 5 ay boyunca hər gün, gizlicə evlənmə təklifi edən və bu kadrları sosial şəbəkədə paylaşan ingilis kişi sosial medianın fenomeninə çevrilib. Hekayəsi qısa müddət ərzində minlərlə insana çatan 38 yaşlı Ray Smit 148 dəfə üzərində "mənimlə evlənərsəmi?" sözləri yazılmış kağız parçası ilə selfi çəkib. Hazırda 8 aylıq hamilə olan sevgilisinə son bir dəfə də eyni sualı verən Klar Bramleydən istədiyi cavabı alıb.**







Amma bu, dünyada ilk hadisə deyil. Belə ki, keçən il Dean Smit adlı kişi də sevgilisi Cenifer Kesselə eyni üsulla evlənmə təklifi etmişdi. Amerikalı adam bu layihəyə 8 yanvar 2014-cü ildə başlayıb və sevgilisinə 1 il boyunca, ona hiss etdirmədən evlənmə təklifi edib.

# Yatır, yuxulu halda mətbəxə keçib yeyib kökəlir

**İngiltərənin Çeşir qraflığındakı Uorrinqton şəhərində yaşayan Lesli Kusak hər gecə yatandan sonra yuxuda ikən mətbəxə keçib 2500 kalorilik yemək yeyir.**

Nadir qida pozuntusu xəstəliyi olan NSRED (Nocturnal Sleep-Related Eating Disorder) sindromu xəstəsi olan 55 yaşlı qadın hər gecə yuxuya gedəndən sonra gecənin bir aləmində durur, evin birinci mərtəbəsindəki mətbəxə enir, önlüyünü taxır, meyvə və tərəvəz yeyir, yumurta qırır, ən müxtəlif xörəklər bişirir. Amma 55 yaşlı qadın oyananda nə etdiyini əsla xatırlaya bilmir.

3 övlad anası olan Kusak gecə nə bişirib yediyini yalnız səhər saatlarında mətbəxi təmizləyəndə anlayır. Marketdə çalışan və təqaüdə çıxan Kusakın yeganə dərdi gecələr yuxulu-yuxulu dolaşması, yemək bişirib yeməsi deyil. Yuxulu olduğu üçün o, gecələr dəfələrlə vazelin, yuyucu toz və boya kimi zəhərli maddələri də bişirərək yeyib. NSRED sindromu ilk də 1955-ci ildə aşkarlanıb.

**Bu sindromun daşıyıcısı olan insanlar gecələr yuxulu olduqları halda yemək yeyirlər.**





## Amerikalılar işləmək istəmir

**Son bir ildə Amerikada işləmək istəyən insanların sayında azalma müşahidə olunub. Bu, son 34 ilin ən aşağı göstəricisi kimi qeydə alınıb. Elə həmin səbəbdən də 4 milyon işçiyə ehtiyac duyan Amerikada bəzi vəzifələr boş qalıb. İqtisadi böhrandan çıxışın ən önəmli sübutu kimi açılan yeni iş yerlərində isə amerikalılar işləmək istəmir.**

Araşdırmalar ölkədə xalqın get-gedə tənbəlləşdiyini ortaya qoyub. "Express Employment Professionals" təşkilatının araşdırmasının nəticələrinə görə, amerikalılar artıq iş axtarmağı bir kənara qoyub. Hər gün daha çox insan sosial güzəştlər üçün müvafiq qurumlara müraciət edir.



## Suriyalı qaçqın lotereyada 1 milyon avro uddu

**Suriyalı qaçqın Fransada oynanılan lotereyada bir milyon avro qazanıb. Bu barədə Rusiyanın lenta.ru saytı xəbər verib. 10 avro qiyməti olan lotereya biletini Paris yaxınlığında yerləşən Banole şəhərində alan və milyoner olan kişi barədə məlumat tezliklə dünya mətbuatında sürətlə yayılıb. Əslində isə o, sözügedən mükafatı 2015-ci ilin iyununda qazanıb. Amma bu, 14 yanvarda "Le Parisien" qəzetində dərc olunan xəbərdən sonra aşkara çıxıb. Xəbərdə o da qeyd olunub ki, cek-potu qazanan qaçqın öncə özünə ev alıb, indi isə restoran açmaq istəyir. Kişi eyni zamanda fransız dili bilgilərini artırmağı planlaşdırır. Bundan başqa, ailəsini Fransaya köçürmək istəyir. Adı açıqlanmayan 30 yaşlı kişi Fransaya 2011-ci ildə, Suriyada vətəndaş müharibəsi başlanan vaxt köçüb. Lotereyanı qazanana qədər Banole şəhərində fəhlə kimi çalışırıb. Maraqlıdır ki, 2015-ci ilin dekabrında da 400 min avro məbləğindəki lotereyanı Seneqaldan olan miqrant qazanmışdı.**



## Təyyarələrdəki ayaqyolu pullu ola bilər

**"Pegasus" Hava Yolları şirkətinin rəhbəri Əli Sabançı ciddi dartışmalara səbəb olan açıqlama verib. Türkiyənin "Sabah" qəzetinin xəbərinə görə, Ə.Sabançı deyib ki, təyyarələrdəki ayaqyolu pullu ola bilər. Sabançının sözlərinə görə, İtaliyadakı pullu magistrallarda yerləşən tualetlər da ödənişlidir: "İtaliyadakı pullu magistrallarda maşın sürmüsüz heç? Xırda pulun yoxdursa, ayaqyoluna gedə bilməzsən. Demək ki, mən təyyarədə də bir gəlir qaynağı əldə edə bilərəm".**




**QOÇ** - Ümumi fon neqativ olsa da, çalışmalısınız ki, ixtiyarınızda olan bu tarixdə mənfi mənada heç nə baş verməsin. Tanrını başınız üstündə hiss edin, ziyarətgahlara baş çəkin.

**BUĞA** - Hər hansı yeniliklə rastlaşacağınızı düşünməyin. Çünki ulduzların düzülüşü passiv bir təqvim yaşayacağınızı bildirir. Qarşıda qeyri-iş günü olduğu üçün görüşləri intensivləşdirin.

**ƏKİZLƏR** - Yaxşı olar ki, adi işlərlə məşğul olmaqla bu təqvimi başa vurasınız. Onsuz da işdə və ünsiyyətdə o qədər də səmərəli nəticələrə nail ola bilməyəcəksiniz. Uzaq səfərləri təxirə salın.

**XƏRÇƏNG** - Qərar çıxararkən reallığı mütləq nəzərə alın. Elə etməyin ki, sonralar əziyyət çəkəsiniz. Dost bildiyiniz insanları müəyyən sınaqlara çəkin ki, onların sədaqət dərəcəsini biləsiniz.

**ŞİR** - Havaların şıltaqlığı hansısa ovqat düşkünlüyü yaratmayacaq. Əksinə, günün ümumi axarı ürəyinizcə olacaq. Qarşılıqlı münasibətlərdə obyektiv olmaqla uğur qazana bilərsiniz.

**QIZ** - İlk növbədə qarşılıqlı münasibətlərə fikir verin. Çünki ən zəif yeriniz davranışla bağlıdır. Əsəblərinizi qorumaqla gün ərzində müəyyən irəliləyişlərə nail ola bilərsiniz.

**TƏRƏZİ** - Maddi cəhətdən müəyyən irəliləyişlər mümkün olsa da, qarşılıqlı münasibətlərdə və fəaliyyət zəminində gərginlik gözlənilir. Odur ki, davranışlarınıza diqqət yetirməyə çalışın.

**ƏQRƏB** - Nə vaxtsa buraxdığınız səhvlər bu gün qarşınıza çıxa bilər. Belə məqamlarda özünüzü itirməkdənsə, hər addımda məsuliyyətli olmalısınız. Hər hansı dava-dalaşa ehtiyac yoxdur.

**OXATAN** - Hansısa xoşagəlməzliyi gözləməyə dəyməz. Ətrafınızda olan xeyirxah insanların dəstəyi nəticəsində nəzərdə tutduğunuz zirvələrə yaxınlaşa biləcəksiniz. Sevgidə kobudluq etməyin.

**OĞLAQ** - Bürcünüzün sonuncu tam təqvimini yaşayacaqsınız. Bu səbəbdən də nəzərdə tutduğunuz planların icrasını sürətləndirin. Ələlxüsus da şəxsi büdcənizi artırmağa çalışmalısınız.

**SUTÖKƏN** - Sevinməyə dəyər. Çünki sabahdan Zodiakda hakim bürc olacaqsınız. Bu isə nəticə etibarilə bütün proseslərdə üstünlüyü sizə verəcək. Amma gərək səhhətinizə də fikir verəsiniz.

**BALIQLAR** - Nahara qədər əhəmiyyətsiz adamlardan uzaq olun. Cəfəng söhbətlərə vaxt itirməkdənsə daha əməli işlərdən yapışın. Özünüzü soyuqdan qorumağı tövsiyə edən ulduzlar axşama sürpriz hazırlayıb.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ağ ayı balalarını yedi...



**Fin zooparkında dekabrın əvvəlində dünyaya göz açmış iki balaca, ağ ayı itkin düşüb. Bu barədə lenta.ru saytı xəbər verir. Ranua zooparkının əməkdaşları şübhələniblər ki, ayıları analarıı, Venera ləqəbli böyük ayı yeyib. Balaca ayıları sonuncu dəfə 18 dekabrda zooparkda görüblər. Saytın yazdığına görə, ayılar övladları zəif doğulanda onlardan imtina edir. O ayıları adətən zooparkın işçiləri yedirdir. Analoji hadisə 2008-ci ildə Nyunberq zooparkında baş verib. Həmin vaxt ağ ayı iki balasını öldürüb, onları yemişdi.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300